

## Ermənistan həm iqtisadi, həm də siyasi cəhətdən çökür

14

# Səs

№ 117 (6558) **5 iyul**
2022-ci il. **Qiymәti 60 qәpik**

## İlham Əliyev: "Azərbaycan ilə ABŞ-ı dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir"

**Prezident İlham Əliyev**
4 İyul - Müstəqillik Günü münasibətilə
ABŞ Prezidenti Cozef Baydenə təbrik məktubu ünvanlayıb



2

# Laçından sonra növbə XANKƏNDİDİR!



Rusiyanın Ermənistana görə Azərbaycan və Türkiyə ilə konfrontasiyaya getmək marağı və gücü yoxdur

4



## Rusiya prezidentinin xüsusi nümayəndəsi: "Heydər Əliyev məni şoka saldı"

15




## "Solovyov efirdə rəsmən Azərbaycandan üzr istəməyə məcbur edildi"

9



## QHT əməkdaşları "SƏS" Media Qrupunda olublar

6

## Marketinqi öyrənməyə haradan başlamaq lazımdır?



6

## Bakıda bitməyən tıxac dərdi: Bu yolların alternativi yoxdur



## "Barselona" bu futbolçuya 500 milyon qiymət qoydu!




16

# İlham Əliyev: "Azərbaycan ilə ABŞ-ı dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir"

*Prezident İlham Əliyev 4 İyul - Müstəqillik Günü münasibətilə ABŞ Prezidenti Cozef Baydenə təbrik məktubu ünvanlayıb*

**Otuz ildir ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Biz ilk gündən ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə ABŞ-ın dəstəyini yüksək qiymətləndiririk. AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin 4 İyul - Müstəqillik Günü münasibətilə ABŞ Prezidenti Cozef Baydenə ünvanlandığı təbrik məktubunda yer alıb.**



Məktubda vurğulanır ki, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq ikitərəfli və çoxtərəfli müstəvidə uğurla davam edir. Beynəlxalq təhlükəsizliyin təmin olunması və terrorizmə qarşı mübarizədə uzun müddətdən bəri davam edən birgə fəaliyyətimiz məmnunluq doğurur. Enerji təhlükəsizliyi məsələlərində ölkələrimizin sıx əməkdaşlığı, həyata keçirdiyimiz irimiqyaslı transmilli layihələrdə ABŞ-ın yaxından iştirakı və hərtərəfli dəstəyi müvəffəqiyyətimizin əsas amillərindəndir.

"Bu gün Azərbaycan ilə ABŞ arasında bir sıra mühüm sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əməkdaşlığımız siyasi əlaqələrimizin də genişlənməsinə şərait yaratmışdır. Ölkələrimizin enerji, təhlükəsizlik və terrorizmə qarşı mübarizədə əməkdaşlığı nümunəvi xarakter daşıyır", - deyə Azərbaycan Prezidenti məktubunda qeyd edib .



## Çavuşoğlu: "Azərbaycanın Ermənistana təklif etdiyi davamlı sülh anlaşmasının imzalanmasının tezləşdirilməsini istəyirik"

"Türkiyə ilə Ermənistan arasında normallaşma prosesinin başlaması üçün bəzi addımlar atılıb. Bunu mərhələli qaydada davam etdirmək istəyirik. Hər zaman dediyim kimi, Can Azərbaycanla prosesi məsləhətli şəkildə koordinasiya edirik. Digər tərəfdən Ermənistanla Azərbaycan arasında normallaşma prosesini dəstəkləyirik." Bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Ankarada keçirilən mətbuat konfransında ifadə edib.

"Azərbaycanın Ermənistana təklif etdiyi davamlı sülh anlaşmasının imzalanmasının tezləşdirilməsini istəyirik. Çünki bölgədə davamlı sülhə ehtiyac var. Azərbaycan ilə Ermənistan arasında Zəngəzur dəhlizi daxil olmaqla layihələrin həyata keçirilməsi vacibdir", - deyə fikirlərini davam etdirən nazir Mövlud Çavuşoğlu diqqətə çatdırıb ki, normallaşma prosesinə ən böyük əngəl Ermənistandakı revanşist cəhdlərdir.

Vyana görüşlərini yüksək dəyərləndirən nazir Mövlud Çavuşoğlu bildirib ki, xüsusi nümayəndələr Türkiyədə və yaxud Ermənistanda da görüşə bilərlər. Təəssüf ki, Ermənistan hələ buna hazır deyil.

## "Məkkə" qəzeti: Bakıda Qoşulmama Hərəkatı tarixində daha bir mötəbər tədbir keçirildi

Səudiyyə Ərəbistanının ən çox oxucu kütləsinə malik olan "Məkkə" qəzeti Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransı haqqında geniş məqalə dərc edib. Məqalədə dünyanın 40-dan çox ölkəsinin parlament nümayəndə heyətlərinin, 9 beynəlxalq parlament təşkilatlarının təmsilçilərinin iştirak etdiyi Bakı konfransının Qoşulmama Hərəkatının tarixində daha bir mötəbər tədbir olduğu diqqətə çatdırılıb.




Bakı konfransında Səudiyyə Ərəbistanın parlamentinin sədri Abdulla bin Məhəmməd bin İbrahim Al əş-Şeyxin başçılıq etdiyi nümayəndə heyətinin də iştirak etdiyini qeyd edən qəzet vurğulayıb ki, parlamentlərin sədrlərinin və üzvlərinin müzakirə etdikləri məsələlər arasında Yaxın Şərq və Körfəz regionunda davam edən silahlı münaqişələrin həlli, o cümlədən ərəb ölkələrində sülhün və təhlükəsizliyin təmin edilməsi də diqqət mərkəzində olub. Konfransın yekununa dair qəbul olunmuş Bakı Bəyannaməsi dünyada ədalətli düzənin qurulması, dayanıqlı inkişafa nail olunmasında Qoşulmama Hərəkatının rolunu ehtiva edib. Bu sənəddə, həmçinin təsisatın institusional strukturlarının təkmilləşdirilməsi, parlamentlərin fəaliyyətinin gücləndirilməsi və üzv ölkələrin qanunverici orqanları arasında əlaqələrin inkişafı məsələləri də öz əksini tapıb.

# Ceyhun Bayramov İran Prezidenti ilə görüşüb

**İyulun 4-də İrana rəsmi səfəri çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, İran Prezidenti Seyid İbrahim Rəisi noyabrın 28-də Aşqabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayıb. O, Azərbaycan Prezidenti İlham Əliyevə səmimi salamlarını çatdırıb. Prezident Seyid İbrahim Rəisi, İranla Azərbaycan arasında əlaqələrin dərin köklərə sahib olduğunu bildirib və iki ölkə arasında mədəni və tarixi əlaqələrin xalqlarımızın istəyindən irəli gəldiyini söyləyib. Bundan sonra da əlaqələrin inkişafının təmin olunması üçün ticarət dövriyyəsinin artırılmasının zəruriliyini vurğulayan Prezident Seyid İbrahim Rəisi, ikitərəfli əlaqələrin regional əməkdaşlığa da öz töhfəsini verəcəyini qeyd edib.

Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud olan tarixi, dini və mədəni bağlardan söhbət açaraq əlaqələrin inkişafında dövlət başçılarının görüşlərinin mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. Bu xüsusda, iki ölkənin Prezidentləri arasında qısa zamanda iki görüşün keçirilməsinin əhəmiyyətini vurğulayıb. Nazir Ceyhun Bayramov, iki ölkə Prezidentlərinin Aşqabadda keçirdiyi görüşdə əldə olunan razılıqlar və verilən tapşırıqlara müvafiq olaraq İranda öz həmkarı ilə faydalı danışıqların aparıldığını qeyd edib.

Nazir, həmçinin iki ölkə arasında energetika, nəqliyyat, kommunikasiya sahələrində həyata keçirilən birgə layihələrdən söz açıb. Bu xüsusda Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılmasının, o cümlədən işğaldan azad edilmiş ərazilərdə birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə, həmçinin bölgədəki cari vəziyyət ətrafında fikir mübadiləsi aparılıb. Regional sülh və təhlükəsizliyin təmin edilməsinin və bu istiqamətdə region ölkələrinin əməkdaşlığının vacib olduğu bildirilib.






# İlham Əliyevin Qoşulmama Hərəkatına rəhbərliyi ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə töhfə verir

Azərbaycan üzv olduğu hər bir təşkilatda daim öz fəallığı, təşəbbüsləri ilə seçilir. Ölkəmiz BMT-dən sonra ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına 2011-ci ildə üzv olmasına baxmayaraq, fəaliyyətinin ilk günlərindən başlayaraq həmrəylik, qarşılıqlı əməkdaşlıq, eyni zamanda, Bandunq prinsiplərinin təşviqinə töhfəsini verməyə çalışıb. Qeyd etmək lazımdır ki, ədalətlin, sülh və təhlükəsizliyin təmin olunması hər zaman aktual olub. Əfsuslar olsun ki, ərazi bütövlüyü, suverenlik, müstəqillik, bir-birinin işlərinə müdaxilə etməmə kimi mühüm prinsiplər bütün ölkələr tərəfindən qorunub saxlanılmır. Buna görə bu gün dünyada müharibələr, münaqişələr baş verir. Bütün bu ədalətsizliyin, ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində Azərbaycan davamlı olaraq təşəbbüslər göstərir. Qoşulmama Hərəkatının bütün təşəbbüslərinə çox fəal cəlb olunan və iştirak edən Azərbaycanın bu təşkilata sədrlik etməsinin əsas səbəblərindən biri də elə bu idi. Artıq 5 il sonra, yəni 2016-cı ildə 120 ölkə yekdil dəstəyini göstərdi. 2019-cu ildə Bakıda Qoşulmama Hərəkatının Zirvə toplantısı keçirildi və ölkəmiz 2019-2022-ci ilə qədər sədrliyi üzərinə götürdü. Qoşulmama Hərəkatına sədrliyimizin üzv ölkələrin qərarı ilə 2023-cü ilin axırına kimi uzadılması ölkəmizə göstərilən böyük hörmət və fəaliyyətimizə verilən yüksək qiymətdir.Ölkə başçısının təşəbbüsləri dünya miqyasında böyük maraqla qarşılanıb və müasir dövrün çağırışlarına tamamilə adekvat olduğu üçün ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilib. Azərbaycan Prezidenti pandemiya dövründə yaranan bir sıra problemləri beynəlxalq tribunalardan dəfələrlə səsləndirib və peyvəndlərin ədalətsiz bölgüsü hallarına qarşı xüsusilə diqqət çəkib. Belə ki, Azərbaycan ilk gündən pandemiya ilə effektiv şəkildə mübarizə aparan ölkələr sırasındadır. Azərbaycan təkcə yerli səviyyədə deyil, beynəlxalq müstəvidə də pandemiya ilə effektiv mübarizəyə mühüm töhfələr verib. Qoşulmama Hərəkatının və Hərəkatın sədri kimi Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü çoxsaylı təşəbbüslər pandemiya ilə mübarizənin qlobal səviyyədə effektiv təşkili baxımından böyük əhəmiyyətə malikdir. Belə ki, 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasında COVİD 19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyanın keçirilməsi, habelə ötən il mart və dekabr aylarında BMT İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamələrin qəbul edilməsi məhz Azərbaycan Prezidenti tərəfindən Qoşulmama hərəkatına üzv dövlətlər adından irəli sürülüb. Bununla yanaşı, həmrəylik əlaməti olaraq, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə qədər ölkəyə maliyyə və humanitar yardım edib.

## AZƏRBAYCANIN SƏDRLİYİ İLƏ "PEYVƏND MİLLƏTÇİLİYİ"NƏ QARŞI EFFEKTİV MÜBARİZƏ

Azərbaycan pandemiya, "peyvənd millətçiliyi" və peyvəndlərdən istifadə ilə bağlı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qeyri-bərabərliyə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində vacib qlobal təşəbbüslərlə çıxış edib. BMT Baş Assambleyasının Xüsusi Sessiyası, peyvəndlərdən bərabər və universal istifadənin təmin edilməsinə dair qətnamələr bunun bariz nümunəsi olmaqla, həm də Azərbaycanın Hərəkata ədalətli yanaşmasının növbəti təzahürü oldu. Belə ki, dünyada istehsal olunan peyvəndlərin mütləq əksəriyyətinin zəngin dövlətlər tərəfindən alınmasından narahatlıq ifadə olunan bu termin azgəlirli və ya az inkişaf etmiş olaraq qiymətləndirilən ölkələrin öz əhalisini qorumaq imkanlarından məhrum olduqlarını bildirir. Bu isə həlli vacib olan önəmli bir problemdir. Aydındır ki, pandemiyadan sadəcə bir neçə ölkənin özünün xilas etməsi ümumi "zəfər" baxımından heç nə ifadə etmir. Yalnız dünyanın yekdil qələbəsi, yəni zəngin və az inkişaf etmiş ölkələrin hər birinin pandemiyadan can qurtarması ümumi rifaha gətirib çıxara bilər. Buna görə də bütün ölkələr məsuliyyətlə davranmalı və özü qədər digər dövlətlərin də peyvənd əldə etmə haqlarına hörmət etməlidir. Qeyd edək ki, ölkə başçımız bu fikirləri dəfələrlə səsləndirmişdir. Və Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürdü və həmin qətnamə yekdilliklə qəbul edildi.

## AZƏRBAYCAN QOŞULMAMA HƏRƏKATINA ÜZV ÖLKƏLƏR ARASINDA HƏMRƏYLİYİN GÜCLƏNDİRİLMƏSİNƏ XÜSUSİ ÖNƏM VERİR

Qeyd edək ki, Qoşulmama Hərəkatı təkcə ölkələr üçün maraqlarını müdafiə etmək və bir-birini dəstəkləmək deyil, beynəlxalq arenada daha fəal rol oynamaq üçün platforma da ola bilər. Azərbaycanın hər bir təşəbbüsü əməkdaşlığın inkişafına, regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə, dünyada əks qütblər arasında birliyin, həmrəyliyin yaradılmasına xidmət edir. Bu baxımdan ölkəmiz beynəlxalq aləmdə sabitləşdirici faktor kimi mövqeyini möhkəmləndirir. Azərbaycanın təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin müzakirə üçün seçdiyi mövzu da bu kimi məqamlara aydınlıq gətirir. Bakı konfransında Qoşulmama Hərəkatının üzv dövlətlərinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi"nə öz töhfələrini verəcəklərinə əminlik ifadə edildi."Göründüyü kimi, hər zaman qlobal təşəbbüslər müəllifi İlham Əliyevin irəli sürdüyü daha bir təklif reallığa çevrildi. Ümumiyyətlə, Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə irəli sürdüyü qlobal təşəbbüslər beynəlxalq birlik tərəfindən birmənalı olaraq təqdir edilib.Bu, bir daha təsdiq edir ki, Azərbaycan 120 əsas üzvü, 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirən Qoşulmama Hərəkatının fəaliyyətinə mühüm töhfələr verir, hətta onun artıq təşkilata çevrilməsi istiqamətində vacib addımlar atır. Qoşulmama Hərəkatının tamhüquqlu üzvü olan Azərbaycan təşkilatın ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha dünyaya nümayiş etdirir. Prezident İlham Əliyev iyunun 30-da Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunan Bakı konfransı çıxışı zamanı onu da bildirdi ki, Azərbaycanın Qoşulmama Hərəkatının sədri qismində irəli sürdüyü təşəbbüslər həmrəyliyi və qarşılıqlı dəstəyi möhkəmləndirməyə, təsisatımızın institusional inkişafına və bəlkə də müəyyən mərhələdə onu təşkilata çevrilməsinə yönəlib: "Bilirəm ki, Qoşulmama Hərəkatının tarixində bununla bağlı müzakirələr olub və bəlkə də bu müzakirələri yenidən başlamağın vaxtı çatıb. Çünki bu gün biz dünyada qlobal qütbləşmənin, müharibənin, münaqişənin, proqnozlaşdırıla bilinməyən vəziyyətin, ərzaq, enerji və humanitar böhranların şahidi oluruq. Hesab edirəm ki, Qoşulmama Hərəkatı təkcə ölkələr üçün maraqlarını müdafiə etmək və bir-birini dəstəkləmək platforması deyil, beynəlxalq arenada daha fəal rol oynamaq üçün platforma da ola bilər. Azərbaycan olaraq biz bunu görmək arzusundayıq və ümid edirəm ki, bizim hörmətli qonaqlarımız, Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentlərinin nümayəndələri bu işə töhfə verəcək və əlbəttə ki, mən də Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçıları ilə məsləhətləşmələrimi davam etdirəcəyəm".

## "BU GÜN QOŞULMAMA HƏRƏKATININ TARİXİNDƏ ÇOX VACİB GÜNDÜR, BİZ BAKIDA PARLAMENT ŞƏBƏKƏSİNİN ƏSASINI QOYURUQ"

Bir sözlə, Bakı konfransı Azərbaycan Prezidenti İlham Əliyev cənablarının dediyi kimi, "Azərbaycanın irəli sürdüyü və üzv ölkələrin dəstəklədiyi digər təşəbbüs Qoşulmama Hərəkatının Nyu-Yorkda dəstək ofisinin açılmasıdır. Düşünürəm ki, indi institusional inkişaf üçün daha çox addımlar atılması üçün doğru vaxtdır, qarşılığında bu bizə beynəlxalq arenada öz maraqlarımızı qorumağa yardım edəcək və əlbəttə ki, bizim ölkələrimiz arasında həmrəyliyi gücləndirəcək"

***RƏFİQƏ KAMALQIZI***

ANALİTİK+AKTUAL

# Laçından sonra növbə Xankəndididir!

*Rusiyanın Ermənistana görə Azərbaycan və Türkiyə ilə konfrontasiyaya getmək marağı və gücü yoxdur*

**Ötən gün erməni blogeri Vardan Qukasyanın internet resursu üzərindən Laçında ermənilərin öz soydaşlarının evlərini talan etmələri ilə bağlı yayımladığı videogörüntülərindən sonra bir daha məlum oldu ki, Laçın şəhərinin və ona bağlı bir neçə gəndin təhvil verilməsini eşidən ermənilər bu fürsətdən də öz kirli maraqları üçün istifadə etdiklərini gizlətmirlər. Bununla bağli sosial şəbəkələrdə yayılan görüntüdə qadın çəkiliş apara-apara deyir: ”Gəlmişik evimizə, hansı ki, qapını bağlayıb çıxmışdıq. Buradan türklər keçib, ya ermənilər? Açarı götürüb evə daxil oldum və mənzərə... Mənim erməni vətəndaşlarımın mənzərəsi... Qapılar, pəncərələr, qalan əşyalar yoxdur”.**

Öz erməni soydaşlarını sərt tənqid edən Vardan Qukasyan paylaşdığı videoda erməniləri təhqir edib. ”Sosial mediada yayılan görüntünü gördüm, şoka düşdüm. Laçında ermənilərin işğaldan sonra yaşadıqları evləri elə ermənilər talayır. Bu görüntüdə olana talan demək ən yumşaq ifadədir. Evə girib texnika, qır-qızıl, pul oğurlamaq talan sayılar, amma evə girib, qapı-pəncərə, kafel, unitaz oğurlamağa nə ad qoyasan? Bu talan deyil, heç bir dildə bunu ifadə etmək üçün söz yoxdur. Məsələ ondadır ki, bunu edənlər türklər deyil, öz ermənilərimizdir!", deyə bloger əsəbi şəkildə bağırıb. Vardan Qukasyan soydaşlarının Ağdamı və başqa şəhərləri qarət edib yer üzündən silmələrini etiraf edib. Nə qədər qəribə görünsə də o, bu kimi talançılıq əməllərinin əsl erməni siması olduğunu vurğulayıb.



Onu da xatırlatmaq yerinə düşərdi ki, 44 günlük müharibədən sonra kapitulyasiya aktına imza atan ermənilər Ağdam və Kəlbəcəri tərk etmələri üçün onlara verilən vaxtdan sui-istifadə edərək boş qalan kəndlərdə talanlar, soyğunlar, yanğınlar törədir, flora və faunanı məhv edir, təbiətə qarşı terror törədirdilər. Lakin fakt budur ki, erməni ayağı dəyən yerlərdən fərqli olaraq bu gün Azərbaycan xalqının, dövlətinin ayağının dəydiyi azad Qarabağda aparılan yenidənqurma işləri kimin-kim olduğunu bir daha isbatlayır. Ermənilərin dağıtdıqları, xarabalığa çevirdikləri Azərbaycan torpaqlarına məhz Azərbaycan həyat, nəfəs bəxş edir.

Bu arada, məlum olan həm də budur ki, Ermənistandakı revanşist qüvvələr üçtərəfli bəyanata əsasən Laçının bütövlükdə Azərbaycanın nəzarətinə keçməsi faktı ilə barışmaq istəmədiklərini büruzə edirlər. Onlar yaxşı bilirlər ki, Laçından sonra növbə onlarındır!

### Tofiq Zülfüqarov: ”Bununla minlərlə Azərbaycan vətəndaşının öz doğma yurdlarına qayıtmaq şansı yaranır

Mövzu ilə bağlı Azərbaycanın sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov bir sıra maraqdoğurucu məqamlara toxunub. ”Bilirsiniz, Qarabağla Ermənistan arasındakı alternativ Laçın yolunun bu və ya digər konfiqurasiyası vacibdir. Çünki bununla minlərlə Azərbaycan vətəndaşının öz doğma yurdlarına qayıtmaq şansı yaranır. Amma digər tərəfdən, ”Laçın dəhlizi” deyilən böhran çox geniş bir məsələdir. Çünki 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatı götürsək, görəcəyik ki, orada iki dəhliz nəzərdə tutulur: biri beşillik Laçın dəhlizi, digəri isə müddətsiz Meğri, başqa sözlə Zəngəzur dəhlizi...", deyə xatırladan politoloq mətbuata verdiyi açıqlamasında bildirib ki, alternativ Laçın yolunun istifadəyə verilməsindən sonra bəzi revanşist erməni qüvvələri yenidən özlərini sözün əsl mənasında ülgücləməkdədirlər. Zülfüqarovun sözlərinə görə, revanşistlər israrlıdırlar ki, onlar nəinki hazırkı Laçın dəhlizini, üstəlik Zəngəzur dəhlizini də verməyəcəklərmiş və s. ”Yəni bu baxımdan məsələyə digər bir formatda baxılmalıdır. Bəlkə ümumiyyətlə, biz Laçın yolunu bağlayaq, yaxud tamamilə nəzarətə götürək. Yəni ən azı həmin yolun Ermənistanla sərhəddən keçən hissəsində Azərbaycanın sərhəd və gömrük xidməti fəaliyyətə başlamalıdır", sabiq XİN rəhbəri bildirib.

### Sabiq XİN rəhbəri: ”Hiss olunur ki, Ermənistandakı bir sıra qüvvələr konfrontasiyaya, qarşıdurmaya meyillidirlər və münaqişənin davam etməsi taktikasını seçiblər”

Tofiq Zülfüqarov əlavə edib ki, 10 noyabr razılaşmasına uyğun olaraq Rusiya hərbçiləri təhlükəsizliyi təmin etmək üçün qala bilərlər, amma bu haqda onların öhdəlikləri var: ”Lakin Azərbaycanın belə bir öhdəliyi yoxdur ki, Laçın yolunda sərhəd və gömrük xidməti olmasın. Axı oradan kim istəyir, sərbəst keçir, hətta üçüncü ölkələrdən də gəlib-gedənlər var. İkincisi də əsas məsələ onunla bağlıdır ki, yaxşı, müharibə nəticəsində Ermənistan uduzub, məğlub olub. Belə bir vəziyyətdə İrəvandan da bəzi açıqlamalar gəlir ki, yox, biz Azərbaycan ərazisində bəzi müqaviləli hərbçiləri saxlayırıq. Bu, nə deməkdir? Yəni Ermənistan işğalı davam etdirmək fikrindədir. Azərbaycan dövləti öz ərazisindəki erməni əhalinin təhlükəsizliyinə təminat verir. İrəvan getsin, hələlik 100 ildən çoxdur bizim ərazimizdə qondarılmış Ermənistanın özünün təhlükəsizliyini təmin etsin. Yəni hiss olunur ki, Ermənistandakı bir sıra qüvvələr konfrontasiyaya, qarşıdurmaya meyillidirlər və münaqişənin davam etməsi taktikasını seçiblər”.

### Politoloq: ”O boyda Türkiyəni özünə qarşı çevirmək Kreml üçün çox ağır zərbə olar”

Onun sözlərinə görə, Azərbaycan burada çox da səbr göstərməyəcək: ”Yəni bu, belə davam edə bilməz. Ermənistan həm hərbi, həm də iqtisadi cəhətdən tam zəif bir durumdadır. Onun əsas müttəfiqi olan Rusiya birincisi, zəifləyib, ikincisi, həm də o vəziyyətdə deyil ki, Azərbaycan və Türkiyə ilə qarşıdurmaya getsin. Bu mənada Ermənistan nəyə ümidlidirlər, Allah bilir”.

Bu arada onu da xatırladaq ki, bu gün Laçının Zabux kəndində qanunsuz olaraq Suriya, Livan erməniləri məskunlaşıblar. Onların başlarında dayanan Çavuşyan adlı Livan ermənisi də əlində silah oralarda hərlənir və söz yox ki, Azərbaycan əsgərinin hədəfindədir. Ümumiyyətlə, alternativ yolun istifadəyə verilməsindən sonra oradakı separatçılar dinc şəkildə torpağımızı tərk etməzlərsə, ordumuz onları zor gücünə çıxarmalı olacaq və buna tam haqqı da var!

Tofiq Zülfüqarovun daha bir fikri də diqqət çəkib. Belə ki, onun sözlərinə görə, Rusiya əslə bu məsələlərə, yəni erməni revanşistlərinin konfrontasiya yaratmaq cəhdlərinə göz yummayacaq. Daha dəqiq desək, Rusiya Ermənistanı dalana dirəyə bilər və eyni zamanda Azərbaycanın, habelə Azərbaycanın ən güclü müttəfiqi Türkiyənin maraqlarına qarşı çıxmaq istəməz. Çünki Rusiyanın Ukrayna cəbhəsindəki vəziyyəti də bəllidir. Moskvaya isə ikinci, üçüncü cəbhələr ümumiyyətlə sərf etməz. Bu baxımdan, politoloq deyib: ”Moskva çox böyük çətinliklə canlı qüvvə və texnika toplayaraq Ukraynada müəyyən hərəkətlər edə bilir. Belə halda, təbii ki, əgər ”Laçın dəhlizi” ərazisində qarşıdurma baş verərsə, Rusiyanın Ermənistanı müdafiə edəcəyi inandırıcı görünmür. O boyda Türkiyəni özünə qarşı çevirmək Kreml üçün çox ağır zərbə olar”. Beləliklə, iyul ayının sonlarını gözləyək və əmin olaq ki, Laçından sonra növbə Xankəndinindir!

***Rövşən RƏSULOV***



## YAP Gənclər Birliyi ilə Venesuelanın ”Somos Venesuela” Gənclər Siyasi Hərəkatı arasında görüş keçirilib

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Venesuela Bolivar Respublikasının ”Somos Venesuela” Gənclər Siyasi Hərəkatının Baş Katibi, Gənclər üzrə Nümayəndəsi xanım Vanessa Monteronun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Venesuela Bolivar Respublikasının ”Somos Venesuela” Gənclər Siyasi Hərəkatının Baş Katibi, Gənclər üzrə Nümayəndəsi xanım Vanessa Montero təmsil etdiyi ”Somos Venesuela” Gənclər Siyasi Hərəkatının fəaliyyəti haqqında məlumat verib, qonaqpərvərliyə görə dərin minnətdarlığını ifadə edib. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı konfrasında təşkilatın sədr müavini seçildiyini diqqətə çatdıran V. Montero ona yüksək etimadın göstərildiyini qeyd edib. YAP Gənclər Birliyi və ”Somos Venesuela” Gənclər Siyasi Hərəkatı arasında yeni əməkdaşlığın qurulmasının, qarşılıqlı səfərlərin, birgə layihələrin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin sədr müavini seçilməyi münasibətilə Vanessa Monteronu təbrik edib. O, YAP Gənclər Birliyinin fəaliyyəti barədə ətraflı məlumat verib, qarşılıqlı münasibətlərin önəmini vurğulayıb. Bunun hər iki ölkənin hakim partiyalarının gənclər təşkilatları arasında təmasların inkişafı baxımından əhəmiyyətini qeyd edib. Həmçinin bildirilib ki, hər iki ölkənin gəncləri arasında münasibətlərin inkişafı üçün geniş perspektivlər var.

Görüşdə YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev, Venesuela Milli Assambleyasının deputatı Juan Escalona və bu ölkənin Azərbaycandakı səfiri Kristofer Martinez Berroteran da iştirak ediblər.



# Turizm sektorunda YENİ İNKİŞAF DÖVRÜ

**Turizm çox vacib bir sahədir və bəzi inkişaf etmiş ölkələrin belə iqtisadiyyatında əhəmiyyətli rol oynayır, çünki turizm sektoru kifayət qədər gəlir gətərə bilir. Bu baxımdan turizmin inkişafına bütün dünyada xüsusi diqqət yetirilir və bu sektor daim maraq dairəsindədir. Ölkəmizdə də turizm sektorunun daha da inkişaf etdirilməsi prioritet məsələ hesab olunur və bu istiqamətdə, yəni turizmin inkişaf etdirilməsi istiqamətində proqramlar həyata keçirilir, əməli işlər görülür, addımlar atılır.**

Doğrudur, koronavirus pandemiyasının turizm sektoruna ciddi zərbə vurduğu sirr deyil və ölkələr arası sərhədlərin bağlanması turizm üçün heç də arzuolunan nəticələrə gətirib çıxara bilməzdi. Həqiqətən belə də oldu və pandemiya dövrü turizm sektoruna ciddi zərbə vurmaqla da yadda qaldı. Qapanmalar hətta daxili turizmə belə çox böyük ziyan vurdu. Vətədaşlarımızın ölkə daxilində belə regionlara gediş-gəliş məsələləri məhdudlaşdırıldığı zaman daxili turizm haqda danışmağa da dəyməzdi və belə bir şəraitdə turizm əlbəttə ki, inkişaf edə bilməzdi. Əksinə, bütün dünyada olduğu kimi, ölkəmizdə də turizm sektoru özünün ən passiv dövrünü keçirdi.

Artıq pandemiya da, qapanmalar da geridə qalıb və insanlar azad şəkildə hərəkət edə, səfərə çıxa bilir və bu da əlbəttə xüsus turizmin inkişafı üçün ən vacib şərtdir. Belə olan halda Azərbaycanda turizmin inkişafı üçün heç bir əngəl qalmır və ölkəmizdə turizm sektorunun inkişafına ümidləri artırır. Hazırda sözügedən sektorda canlanmanı da müşahidə etməmək mümkün deyil və turist axınının artıq nəzərəçarpacaq dərəcədə artdığı göz qabağındadır. Düzdür, indiki halda istər dünyada, istərsə də ölkəmizdə turizm sektorunun vəziyyətini 2019-cu ilin sonuna qədərki dövrlə müqaisə etmək olmaz, çünki bunu düşünmək belə hələ çox tezdir və bunun üçün müəyyən müddət gərəkir. Ona görə ki, gediş-gəlişin, qapanmaların ardınca nə qədər optimal şərait yaransa belə nəticələrin qeyd olunan zamana qədərki dövrə dərhal çatması mümkün deyil. Onu da qeyd edək ki, əgər bu şəkildə davam edərsə, yəni pandemiya bir daha ortaya çıxmazsa, məhdudiyyətlə, qapanmalar tətbiq olunmazsa ən yaxın zamanda turizm sektorunda yeni inkişaf mərhələsinə, hətta ən yüksək göstəricilərə ümid etməyə dəyər.

Qlobal müstəvidə ziddiyyətli proseslərin getməsi bütün dünyada turizm sektorunun bahalaşmasına gətirib çıxarıb və hətta ölkələr arasında əlaqələrin arzuolunmaz vəziyyətə gəlməsi də turizmə təsirsiz ötüşməyib. Geosiyasi və geoiqtisadi münasibətlərin gərginləşməsinin bütün dünyada turizm üçün çətinliklər yaratdığı da danılmazdır. Məsələn, Rusiya artıq sanksiyalara məruz qalıb və belə bir şəraitdə həmin ölkənin turizm potensialından, bu ölkə vətəndaşlarının turizm zonalarına çıxışından danışmağa da dəyməz. Amma bu vəziyyət heç də ölkəmiz üçün çətinliklər demək deyil, əksinə, əgər Rusiya vətəndaşlarının turizm zonalarına istiqaməti məhdudlaşdırılıbsa, əslində belə bir şəraitdən, yəni belə demək mümkünsə, fürsətdən istifadə etmək də olar. Beləki, istər Rusiyaya gedən, istərsə də Rusiyadan olan turistlər ölkəmizə cəlb edilə bilər, çünki Azərbaycana həmin geosiyasi və geoiqtisadi proseslərin təsiri yox dərəcəsindədir və ölkəmiz dünya ölkələri üçün əlçatan bir regiona çevrilib. Belə olan halda, turizm potensialı böyük olan Azərbaycan tarif baxımından da daha cəlbedici hesab olunmaqdadır və bu da ölkəmizdə turizmin inkişafına əsaslı zəmin yaradır. Əslində, son zamanlar ölkəmizə turist axını da təsdiq edir ki, sadalananlar həqiqəti əks etdirir və Azərbaycanda həqiqətən də turizm sektorunda yeni inkişaf dövrü başlayıb.

Etiraf etmək lazımdır ki, 11 iqlim qurşağından 9-nun Azərbaycanda yerləşməsi, füsunkar təbiətə, təbii resurslara və zəngin mədəniyyətə sahib olmağımız bizim turizm potensialımızın nə qədər böyük olduğundan xəbər verir. Təbii resurslara, gözəl təbiətə sahib olan dünyanın istənilən ölkəsi turizmin inkişafı üçün səy göstərir və ənənəvi turizm, dağ turizmi, ekstremal turizm, sağlamlıq turizmi kimi bir çox turizm növlərinin inkişafına üstünlük verir, hansıki bunun üçün bizim ölkəmizdə də geniş imkanlar vardır və bu imkanlardan yararlanmaq olar. Bunun üçün isə təbii ki, ölkəmizin tanınması, daha dəqiq desək, imkanlarımız, potensialımız barədə məlumat vacib şərtdir. Bilirik ki, artıq bir neçə ildir ki, ölkəmizdə "Formula-1" yarışları keçirilir və bu yarışlar məhz Azərbaycanın, onun təbiətinin, resurslarının tanıdılması üçün əvəzsiz imkanlar deməkdir. Həmin yarışlar zamanı da ölkəmizə turistlərin gəlməsi özü ölkəmizdə turizmin inkişafında müsbət tendensiyadan xəbər verir. Ümumiyyətlə, Dövlət Turizm Agentliyinin artıq müxtəlif dövlət layihələrini həyata keçirməsi, turizmə aid olan digər qurumların bu layihələrdə yaxından iştirak etməsi də xüsusilə vurğulanmalıdır və bütün bunlar onu deməyə əsas verir ki, turizm sektorunda yeni inkişaf dövrü artıq başlayıb.

Heç şübhəsiz ki, Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin müdrikliyi, siyasi iradəsi və rəhbərliyi, eləcə də Azərbaycan Ordusunun şücaəti, xalqımızın birliyi, həmrəyliyi ilə 44 gün ərzində ərazilərimizin işğaldan azad edilməsi sayəsində ölkəmizin turizm potensialı da artdı desək, yanılmarıq. Ona görə ki, işğaldan azad edilən Qarabağ bölgəsinin çox zəngin turizm potensialı var. Əlbəttə ki, həmin ərazilərin istər iqlimi, istər təbiəti, istərsə də təbii resursları müxtəlif turizm sahələri üçün imkanlar deməkdir. Doğrudur, əsrin üçdə birinə yaxın müddətdə həmin ərazilərin ermənilər tərəfindən işğal altında saxlanılması, eləcə də işğal altında olduğu müddətdə onlar tərəfindən dağıdılması, ərazilərin də minalanması bu işə maneçilik törədir. Lakin nəzərə almaq lazımdır ki, hazırda həmin ərazilər həm minalardan təmizlənir, həm də quruculuq-abadlıq işləri görülür, infrastruktur layihələri gerçəkləşdirilir ki, bütün bunlar turizmin inkişafı üçün əvəzsizdir. Sözsüz ki, həmin ərazilərdə fəaliyyət göstərəcək beynəlxalq hava limanlarının da öz növbəsində turizmin inkişafına nə qədər töhfə verəcəyi də hər kəsə bəllidir. Sadalananları nəzərə alaraq cəsarətlə deyə bilərik ki, həqiqətən də ölkəmizdə turizmin inkişafı üçün yeni mərhələ, yeni dövr başlayıb. Ölkəmizdə turizm sektorunda inkişaf qaçılmazdır və yaxın zamanda biz bunun şahidi ola biləcəyik. Artıq turizm sektorunda bir canlanmanın müşahidə olunması isə deyilənləri təsdiqləyir və bu sektorun sürətli inkişafına ümidləri daha da artırır.

***İnam Hacıyev***

# Azərbaycan və İran XİN başçıları nələri müzakirə ediblər?

İrana rəsmi səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bu ölkənin xarici işlər naziri Hüseyn Əmirabdullahian ilə görüşüb. Bu barədə SİA-ya Azərbaycan XİN-dən məlumat verilib. C.Bayramov dəvətə və qonaqpərvərliyə görə təşəkkür ifadə edib. 2021-ci ilin dekabr ayında İran xarici işlər nazirinin Azərbaycana səfərini xatırlayan nazir, qarşılıqlı səfərlərin ikitərəfli əlaqələn inkişafına verdiyi töhfəni qeyd edib. Qısa zamanda, ölkə Prezidentləri arasında iki dəfə görüşlərin keçirilməsinin Azərbaycan və İran arasında əlaqələrin inkişafının göstəricisi olduğu vurğulanıb.



C.Bayramov ötən il ərzində iki ölkə arasında ticarət dövriyyəsinin 30%, 2022-ci ilin ilk yarısında isə 18% artdığını qeyd edərək bu istiqamətdə inkişaf üçün potensialın daha çox olduğunu bildirib. Azərbaycan və İran arasında energetika sahəsində əməkdaşlıq, bu xüsusda, "Xudafərin" və "Qız Qalası" layihələrinin əhəmiyyəti ifadə edilib. Ölkələrimiz arasında xüsusilə nəqliyyat sahəsində səmərəli regional əməkdaşlığın mövcud olduğu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əhəmiyyəti qeyd edilib.

Astarada dəmir yolu terminalının tikintisinin davam etdirilməsinin vacibliyi, eyni zamanda Astaraçay üzərində körpünün tikintisinin də uğurla davam etdirildiyi qeyd olunub. Münaqişə sonrası mərhələdə azad olunmuş ərazilərdə Azərbaycan tərəfindən həyata keçirilən bərpa və quruculuq işlərindən bəhs edən nazir Ceyhun Bayramov, İran şirkətlərinin bu prosesdə iştirakını məmnunluqla vurğulayıb. Nazir həmkarına Azərbaycanın bölgədə sülh quruculuğu istiqamətində atdığı addımlar barədə məlumat verib, Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə ciddi riayət edilməsi əsasında münasibətlərin normallaşmasına hazır olduğunu bildirib.

İranın xarici işlər naziri Hüseyn Əmirabdullahian dəvəti qəbul edib İrana səfər etdiyi üçün nazir Ceyhun Bayramova təşəkkür edib. O, iki ölkənin dövlət başçılarının görüşündə əldə olunan nailiyyətləri, imzalanan sənədləri məmnunluqla qeyd edib. Azərbaycanın İranın xarici siyasətində önəmli yer tutduğunu bildirən nazir Hüseyn Əmir-Abdullahian, iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, ticarət, nəqliyyat, energetika sahələrində əməkdaşlığın uğurla davam etdirildiyini vurğulayıb.

Nazir Hüseyn Əmirabdullahian, həmçinin İran tərəfinin "İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında anlaşma memorandumu"nun icrasında qərarlı olduğunu ifadə edib.

# YAP Gənclər Birliyinin növbəti iclası keçirilib



**İyulun 2-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin növbəti iclası keçirilib.**

İclasda Gənclər Birliyinin 2022-ci ilin ötən 6 ayı ərzindəki fəaliyyəti və qarşıdakı dövrdə həyata keçiriləcək tədbirlər müzakirəyə çıxarılıb.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxış edərək Birliyin fəaliyyətinin ötən dövr ərzində çoxşaxəli olduğunu deyib. Bildirib ki, gənclərin rəqəmsal quruculuq sahəsindəki bacarıqlarının inkişaf etdirilərək onların innovasiya ekosistemində iştirakçılığının artırılması, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və yenilikçi yanaşmanın formalaşması istiqamətində vacib tədbirlər həyata keçirilib. Eyni zamanda gənclərlə sistemli əlaqələrin qurulması, şəbəkələşmə fəaliyyətinin genişləndirilməsi, yerli təşkilatlarda müxtəlif səpkili görüşlərin keçirilməsi Birliyin əsas fəaliyyət istiqamətlərindən olub. Bununla yanaşı ötən dövrdə Gənclər Birliyinin beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində bir sıra fəaliyyətlər həyata keçirilib.

İclasda YAP Gənclər Birliyinin üzvləri 2022-ci ilin növbəti 6 ayı ərzində həyata keçiriləcək tədbirlərə dair fikir mübadiləsi aparıblar, müvafiq qərarlar qəbul ediblər.

# Marketinqi öyrənməyə haradan başlamaq lazımdır?



**Bazar yaranan kimi (6-7 min il əvvəl) marketinq fəaliyyətinin ilk formaları meydana çıxıb və inkişaf etməyə başlayıb. Malların reklamı haqqında məlumat Şumer, Qədim Misirə istinadlarda tapılmışdır.**

Marketinq 17-ci əsrin sonu 18-ci əsrin əvvəllərində daha mükəmməl forma almağa başlayır. Amerikalı tədqiqatçılar hesab edirlər ki, marketinqin müəyyən konsepsiyaları 17-ci əsrdə İngiltərədə məlum olub, oradan kolonistlərlə birlikdə ABŞ-a gətirilib.

Peter Drucker Yaponiyanın marketinqin doğulduğu yer olduğuna inanırdı. 1690-cı ildə cənab Matsuinin Tokioda ilk univermaq açdığına dair sənədli sübutlar var. Ticarət tarixində ilk dəfə olaraq mağaza sahibi diqqətini öz müştərilərinə yönəldir, yalnız tələb olunanı alır, malların keyfiyyətinə zəmanət sistemini təmin edir və malların çeşidini daim genişləndirir.

Marketinqin inkişafının ilk mərhələsi bir növ əsasdır. Birinci mərhələnin özəlliyi onun üç ardıcıl dövrə bölünməsidir: 1860-1920 tələbin təklifdən artıq olmasının ümumi fonunda istehsalın təkmilləşdirilməsi ilə səciyyələnir, onun əsas məqsədi məhsulların həcmini artırmaq.

1920-1930 istehsalın həcminin artırılması sahəsində əldə edilmiş uğurları nəzərə alaraq istehsalçıların keyfiyyətini yaxşılaşdırmaq və müvafiq olaraq məhsul çeşidini dəyişdirməkdir.

1930-1960-cı illərdə isə kommersiya səylərinin intensivləşməsi səbəbindən satışın təşkili prioritet məsələyə çevrilir, çünki bu dövr təklifin tələbdən artıq olması ilə xarakterizə olunurdu. Buna görə də marketinqdə bazarda istehlakçı davranışının tədqiqinə və aktiv modelləşdirilməsinə getdikcə daha çox diqqət yetirilməyi başladı.

## Niyə marketinq öyrənməyə başlamalıyıq?

Bu kimi suallarla təkcə gənclər deyil, həm də tam formalaşmış, biliyə susamış insanlar və ya peşələrini dəyişmək arzusunda olan insanlar tez-tez müraciət edirlər.

## Bəs marketinqi öyrənməyə haradan başlamaq lazımdır?

İctimaiyyətlə əlaqələr və marketinq üzrə aparıcı mütəxəssis Ayşən Həsənova qeyd edir: ”Marketoloqun əsas vəzifəsi bazarın tələbatını ödəməkdir. Kiminsə ehtiyacını ödəmək çoxlu pul qazanmaq demək deyil. Satıcılar, bankirlər, unikal bir şey istehsalçıları marketoloqlardan daha çox qazanırlar. Marketoloq olmaq daimi pul çatışmazlığı vəziyyətində (marketinq layihəsinin ölçüsündən asılı olmayaraq) biznes modelinin bütün səhv hesablamalarına, büdcədəki maliyyə boşluqlarına və digər xidmətlərin işindəki uğursuzluqlara görə məsuliyyət daşımaq deməkdir. Bu, layihənizin heç bir günahınız olmadığı vəziyyətdən çıxış yollarını axtarmaq deməkdir.

Ümumiyyətlə, marketinq bir tərəfdən elm, digər tərəfdən fəlsəfə, üçüncü tərəfdən isə təcrübə və alətlər toplusudur. Alimlər marketinq elminin inkişafı, axtarış, sistemləşdirmə, anlama və fərziyyələrlə məşğul olurlar. Marketinqin bir neçə bölməsi var.

Marketinqdə bünövrəsini qoyan təməl daşları ilə tanış olmaq marketinqin nə olduğunu anlamağa və gələcəkdə öyrənəcəyimiz sahələrdən birini seçməyə kömək edir. Çünki hər şeyi bilmək mümkün deyil.

Marketoloq öz marketinq strategiyası ilə müştəri məmnunluğunu artırmalı, müştəri üçün əlavə dəyər yaratmalı, eyni zamanda satışın artırılması üçün kampaniyalar təşkil etməlidir. Hər bir şirkətin marketinq komandası olmalıdır. Bəzən şirkətlər bunu xərc kimi görür. Lakin bu gün marketinqdə qoyulan xərc gələcək üçün investisiyadır.

Ən önəmli məsələlərdən biri də, satış etmək üçün məhsulu, brendi çox yaxşı tanımaq və araşdırmaq lazımdır. Marketinq ancaq marketinq deprtamentindən ibarət deyil, şirkət daxilində hər kəs məhsul və ya xidməti təqdim etməyi bacarmalıdır”.

Ayşən Həsənova həmçinin media kanallar və ya offline formada məhsulu maksimum dərəcədə müştəriyə tanıtmaq, onun üstünlüklərini vurğulamaq üçün çalışdığını da vurğulayıb.

Əgər bu addımlar atılmasa, müştəri məhsuldan xəbərsiz olacaq və biz istədiyimiz satış hədəfinə, brendin tanınmasına nail ola bilməyəcəyik. Günlük trendləri izləmək, innovativ layihələr haqqında məlumat toplamaq, eyni sahədə fəaliyyət göstərən firmanların müştəri davranışlarına baxmaq və.s önəmlidir. İlkin nəzəri bilikləri üçün onlayn və ya offline kurslara müraciət etmək olar.

Sözügedən sahə təkcə satışın yüksəlməsinə yönəlmir, sadəcə satış marketinqin bir istiqamətidir. Satışın yüksəlməsi marketinqdir, amma marketinq satış deyil. Satış təmsilçisi ilə marketinq tamamilə ayrıdır. Marketolog müştəri ehtiyacını, tələbini və istəklərini müəyyən edir, daha sonra satış prosesi başlayır.

”Ölkəmizdə hal hazırda marketinq sahəsinə maraq kifayət qədər böyükdür. Xüsusilə Rəqəmsal Marketinq sahəsində mütəxəssislərin çox olmasını qeyd etmək lazımdır. Bunun da əsas səbəbi artıq ənənəvi marketinq kanallarının öz yerini Rəqəmsal kanallara böyük nisbətdə təhvil verməsidir”.

Bu fikirləri SİA-ya açıqlamasında Rəqəmsal Marketinq üzrə ekspert-konsultant Samir Mehdiyev bildirib.

”Hər bir sahədə olduğu kimi, marketinqlə də bu sahəni oxuyub öyrənmiş şəxslər məşğul olduqda uğurlu olma şansı daha çox olur. Əlbəttə ki, hər bir kommersiya şirkətinin əsas məqsədi və sütunu satışdır. Şirkətdə çalışan əməkdaşlar birbaşa olmasa da dolayısı ilə satışa təsir göstərə bilərlər.

Marketinq şirkətin vazkeçilməz bir hissəsidir. Çünki marketinq təkcə satışa yox həm də marka dəyərinin artırılmasına da xidmət edir. Bu da yenə də öz növbəsində satışa təsir edir. Doğru qurulmuş marketinq strategiyası şirkətə həm satış gətirər, həm marka dəyərini artırar. Burada önəmli olan marketinqə ayrılan büdcənin miqdarı yox, ondan düzgün və planlaşdırılmış şəkildə istifadə etməkdir. Bu sahədə çalışdığı ilk zamanlar bir çox səhvlər edə bilirlər, önəmli olan məqam isə səhvlərdən dərs almaq və eyni səhvləri dəfələrlə təkrarlamamaqdır.

Marketinqin vəzifəsi, həm də brendin imicinə xidmət etməkdir. Çünki vətəndaş bir markanı nə qədər çox eşidərsə,görərsə ona qarşı olan güvəni bir o qədər çox olar. Burada əsas məsələ müştəriyə yalan vədlər verməməkdir, çünki sizdən narazı qalan sadəcə özünü deyil həm də ətrafındakı insanları da bununla bağlı məlumatlandırır. Yəni qısaca marketinq şöbəsi istər mənfi istər müsbət mənada şirkətin özünə və digər departamentlərə təsir göstərə bilir. Ancaq aydın bir mövqeyə sahib olmaq kifayət deyil, bu aydın mövqenin istehlakçıların mövqeyi ilə uzlaşması vacibdir”.

***Havar Şəfiyeva***

## QHT əməkdaşları ”SƏS” Media Qrupunda olublar

”İrəli” İctimai Birliyinin təşkilatçılığı, QHT Agentliyinin dəstəyi ilə həyata keçirilən ”QHT Əməkdaşlarının Media və PR Bacarıqlarının Artırılması” layihəsi çərçivəsində QHT əməkdaşları ”Səs” Media Qrupuna səfər ediblər. SİA xəbər verir ki, layihə iştirakçılarını salamlayan ”Səs” Media Qrupunun rəhbəri Bəhruz Quliyev qeyd edib ki, qurum qəzet kimi 11 yanvar 1991-ci ildən fəaliyyətə başlayıb. Fəaliyyəti dövründə ölkəmizin bütün bölgələrini əhatə edən ”Səs” Media Qrupuna daxil olan ”Səs” İnformasiya Agentliyi Türkiyə, Gürcüstan, Ukrayna və Şərqi Avropa ölkələri, Qazaxıstan və Orta Asiya ölkələrindəki büroları vasitəsi ilə onlayn xəbər xidməti göstərir və müxtəlif mövzularda dəqiq və operativ informasiya yayır. Hazırda ”Səs” Media Qrupunun tərkibində ”SƏS TV” onlayn televiziyası və ”Səs” Qəzeti fəaliyyətini uğurla davam etdirir.





Layihənin koordinatoru, ”İrəli” İctimai Birliyinin əməkdaşı Arif Rəhimli QHT-lərlə kütləvi informasiya vasitələri arasında əlaqələrin möhkəmləndirilməsində adıçəkilən layihənin böyük rolu olduğunu qeyd edib. ”Səs” Media Qrupuna davamlı informasiya dəstəyinə görə təşəkkürünü bildirən Arif Rəhimli vurğulayıb ki, layihə çərçivəsində digər media qurumlarına da səfərlər təşkil ediləcək. Daha sonra layihə iştirakçıları ”Səs” Media Qrupu və ona daxil olan qurumların fəaliyyəti ilə yaxından tanış olaraq, yeni məlumatlar əldə ediblər. Qeyd edək ki, həyata keçirilən layihənin əsas məqsədi qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin mətbuat və sosial şəbəkələrə çıxış imkanlarını gücləndirmək, habelə aparılan PR-ın səmərəliliyinin yüksəldilməsinə nail olmaqdır.




# Dünya azərbaycanlıları üçün həmrəylik və birlik nümunəsi - ZƏFƏR QURULTAYI!

Bu gün xalqımızın bir qism nümayəndələri - azərbaycanlılar dünyanın müxtəlif nöqtələrində yaşayır və öz fəaliyyətlərini məhz yaşadıqları ölkələrdə davam etdirirlər. Planetimizin qitələrinə səpələnmiş azərbaycanlılar digər xalqların nümayəndələrinin öz vətəninin inkişafı yolunda həyata keçirdikləri genişmiqyaslı layihələrin, tədbirlərin icrasında yaxından iştirak etməklə yanaşı, vətənimizin inkişafı, taleyüklü məsələlərdə yaxından iştirak edərək öz töhfələrini verirlər. Dünya azərbaycanlılarının təşkilatlanması, müstəqil Azərbaycan Respublikası ilə siyasi, iqtisadi, mədəni və mənəvi əlaqələrin inkişaf etdirilməsində bu qərar son dərəcə əhəmiyyətlidir. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlıları bir araya gətirmək, bir məslək və ideya ətrafında birləşdirmək, əlbəttə ki, azərbaycançılıq məfkurəsindən yaranan amaldır. Təbii ki, ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə etmiş Azərbaycanda ideya əsas prioritetlərdən biri elan edilərək, bu istiqamətdə ardıcıl işlər görülməyə başlandı. Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi idi. Ölkəmizdə milli diaspor fəaliyyətinin təməli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Ümummilli Lider Heydər Əliyev tərəfindən 1991-ci il dekabrın 16-da imzalanan "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" qərarla qoyulub. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı, digər sahələrdə olduğu kimi, diaspor quruculuğu işində də əsaslı dönüş yaratdı. Dünya azərbaycanlılarının vətənlə əlaqələrini inkişaf etdirmək, soydaşlarımızın milli özünəməxsusluğunu qoruyub-saxlamaq, diasporun potensialından milli maraqlarımızın daha etibarlı şəkildə qorunması istiqamətində faydalanmaq, diasporlararası əlaqələri genişləndirmək kimi məqsədləri reallaşdırmaq üçün mühüm addımlar atıldı. Ümummilli Lider Heydər Əliyev cəmiyyətin bütövləşməsi və azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlərə imza atdı. Ulu Öndər azərbaycançılıq ideologiyasının real müstəqilliyə nail olmaq, vahid və bölünməz Azərbaycanı qoruyub-saxlamaq və möhkəmləndirmək üçün vasitə olduğunu vurğulayırdı.

## AZƏRBAYCAN DİASPORU TƏŞKİLATLANARAQ, ÖLKƏMİZİN MİLLİ MARAQLARINI QORUYAN QÜVVƏYƏ ÇEVRİLİB

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması kimi məsələlərin, zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli Lider Heydər Əliyevin məlum Sərəncamı bu ideologiyanın gerçəkləşməsinə istiqamətləndi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda Ulu Öndər Heydər Əliyev qurultayın məqsədinə, qarşıya qoyulan məsələlərə aydınlıq gətirərək, bildirmişdi ki, hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın: "Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər və o ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də, müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər. Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük imkanlar vardır. Bu gün işinə başlayan qurultay da, məhz bu məqsədi daşıyır".

Bir il sonra 5 iyul 2002-ci il tarixində Ümummilli Lider Heydər Əliyevin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman tarixi hadisəyə çevrildi. Artıq imzalanan bu rəsmi sənəddən bu gün 20 il keçir. Tarixi dövr ərizində görülən işlərin miqyası ildən-ilə artmışdır. Azərbaycan diaspor təşkilatları həm kəmiyyət, həm keyfiyyət baxımından böyük yol keçmiş, güclənmiş, bu gün dünya miqyasında azərbaycanlılar və onların təmsil etdikləri təşkilatlar önəmli rol oynayırlar.

Bu gün əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan diaspora quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və yüksək diqqəti sayəsində uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli 54 saylı Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Azərbaycan diasporu təşkilatlanaraq, ölkəmizin milli maraqlarını əzmlə qoruyan bir qüvvəyə çevrilib. Azərbaycan diasporunun məskunlaşma coğrafiyasının miqyası sonsuzdur. Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait və mənəvi dəyərlər kimi müxtəlifdir. Lakin problemlərə və çətinliklərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli mənsubiyyətini, adət-ənənələrini, mənəvi-əxlaqi dəyərlərini qayğı ilə qoruyub-saxlayıb və tarixi Vətənlə əlaqələrini itirməyiblər. Bu gün dünyanın müxtəlif ölkələrində diasporumuzun mövcudluğu da, məhz bu amillə bağlıdır. Azərbaycanlılar Amerika qitəsinin şimal, mərkəzi və cənub hissəsində daha çox məskunlaşıblar.

## "MƏN ÇOX İSTƏYİRƏM Kİ, XARİCDƏ FƏALİYYƏT GÖSTƏRƏN DİASPOR TƏŞKİLATLARI DA BİR NÖQTƏYƏ VURSUNLAR VƏ BİRLƏŞSİNLƏR"

2016-cı il 3 iyun tarixində keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı da ölkəmizin tarixinə iftixar gətirəcək hadisələrdən biri kimi yazıldı. Çünki dünya azərbaycanlılarını təmsil edən əsas diaspor təşkilatlarının nümayəndələri, rəhbərləri Azərbaycana - doğma Vətənə gəlmişdilər. Bu birliyin və həmrəyliyin nümayişi idi. Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxışında "Mən çox istəyirəm ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatları da bir nöqtəyə vursunlar və birləşsinlər. Belə olan halda, onların gücü də, ictimaiyyət tərəfindən onlara qarşı hörmət də artacaq", - deyərək, birliyin əsas məsələlərdən olduğunu diqqətə çatdırmışdır: "Xüsusilə, nəzərə alsaq ki, bütün azərbaycanlılar, onların böyük əksəriyyəti vətənpərvərdirlər, Vətənə bağlıdırlar. Onlar istəyirlər ki, Azərbaycan dövləti daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin".

Qurultayda müasir dövrdə informasiya müharibəsi, bu sahədə yeni fəaliyyət mexanizmlərinin tətbiqi, Azərbaycan diaspor hərəkatında gənclərlə bağlı yeni strategiyanın hazırlanması, yeni qlobal iqtisadi tendensiyalar fonunda lobbi quruculuğu, cəmiyyətə inteqrasiya, siyasi həyatda iştirak və digər bu kimi əhəmiyyətli mövzularda fikir mübadiləsi aparıldı. Dünya Azərbaycanlılarının IV Qurultayında Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi, soydaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində mövcud olan problemlər və onların həlli yolları və s. prioritet məsələlər müzakirə olundu.

Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin ilk illərində, zəif olmağımızdan istifadə edən erməni diasporunun uzun illərdir ki, dünyada bizə qarşı çox çirkin kampaniya apardığını və bu kampaniyanın tərkib hissəsinin Azərbaycanı antidemokratik, Ermənistanı isə yazıq, "blokada" şəraitində olan ölkə kimi təqdim etmək məqsədi daşıdığını bildirmişdi: "Azərbaycanda bu illər ərzində diaspor təşkilatları ilə qurulan iş yeni bir mərhələyə gəlib çatıb. Dünyanın müxtəlif yerlərində tədbirlər keçirilir, dünya ictimaiyyəti Azərbaycan reallıqları ilə daha geniş şəkildə tanış ola bilirlər".

Diasporumuzun gördüyü işlər yaşadıqları ölkələrin siyasi həyatına təsir edəcək səviyyəyə yüksəlir. Prezident İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir.

## DÜNYA AZƏRBAYCANLILARININ FƏALİYYƏT DÖVRÜNDƏ YENİ MƏRHƏLƏNİN BAŞLANĞICI

Bu gün artıq Azərbaycan tarixi günlərlə zəngin olan dövrünü yaşayır. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olmaqla yanaşı, dünya azərbaycanlılarının fəaliyyət dövründə yeni mərhələnin başlanğıcı kimi tarixiləşdi. Dünyanın 65 ölkəsindən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı ilə keçirilən Qurultayda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı zamanı verdiyi mesajlar xaricdəki azərbaycanlıların növbəti beş ildə fəaliyyəti üçün yol xəritəsi müəyyənləşdirməklə yanaşı, Azərbaycan diasporu qarşısında yeni vəzifələr də qoymuş oldu. Qələbə qazanmış Azərbaycan xalqının Zəfər Qurultayı 2020-ci il Vətən müharibəsində Azərbaycan xalqının böyük Qələbəsindən sonra keçirilən ilk qurultay idi. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı "Şuşada keçirilən Qurultayın çox böyük tarixi mənası var", - deyə bildirib ki, bu gün Azərbaycan yeni dövrə qədəm qoyub: "Biz otuz il işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi - mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün - xaricdə yaşayan azərbaycanlılar üçün". Bu gün vəziyyətin tam fərqli olduğunu vurğulayan Cənab Prezident diqqətə çatdırıb ki, bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq: "Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq. Bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

Azərbaycanın diaspor fəaliyyəti qısa müddətdə uzun və əlamətdar yol keçərək müasir dövrümüzdə mütəşəkkil şəkildə formalaşıb.

Zəfər Qurultayının Şuşa şəhərində keçirilməsi, heç şübhəsiz ki, dünya ölkələrində yaşayan azərbaycanlıların, diasporumuzun fəaliyyət dövrünün yeni mərhələsidir. Artıq Azərbaycan dünyada sözünü demiş bir dövlətdir və uğurlu inkişaf tarixini yaşayır. Ölkəmizdə həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat dövlətimizin əsas inkişaf göstəriciləridir. Prezident İlham Əliyevin rəhbərlik dövrü müasir-müstəqil Azərbaycanın tarixində sürətli iqtisadi inkişaf, dövlətin təşəkkül tapması, qüdrətinin artması, beynəlxalq nüfuzunun yüksəlməsi uğurlar və böyük qələbələr dövrü kimi xarakterizə olunur.

## TARİXİ ZƏFƏRİN REALLIQLARINI DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRMAQDA DİASPOR TƏŞKİLATLARININ MƏSULİYYƏTİ

Dünya Azərbaycanlılarının Zəfər Qurultayının qələbə rəmzində keçirilməsi nailiyyətlərimizə, zəfərimizə söykənir. Bu zəfər bütün dünya ölkələrində yaşayan Azərbaycanlıların Zəfəridir. Belə ki, müstəqil Azərbaycan bütün Azərbaycanlıların Vətənidir. 44 günlük Vətən Müharibəsində milli birliyimiz, xalq-iqtidar birliyi bizi qələbəyə apardığı kimi bu amillər yaxın gələcəkdə Azərbaycanın daha da gücünü artıracaqdır. Prezident İlham Əliyev müharibədə məğlub olmuş Ermənistanı ölkəmizin ərazi bütövlüyünü rəsmən tanımağa, sülh müqaviləsinin imzalanmasını yubatmamağa və son şansından istifadə etməyə çağırıb. Bununla yanaşı dövlət başçısı Ermənistandakı revanşistlərə sərt xəbərdarlığını da edib.

Müharibədən sonra yaranmış yeni reallıqları, tarixi Zəfərin reallıqlarını, həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqda xaricdə yaşayan azərbaycanlıların, diaspor təşkilatlarının da üzərinə böyük məsuliyyətlər düşür. Əlbəttə ki, Azərbaycan mədəniyyətinin incisi olan Şuşada keçirilən Zəfər Qurultayı soydaşlarımızın yaşadıqları ölkələrdə fəaliyyətlərini daha əzmlə davam etdirmələrinə təkan verəcək. Qurultay iştirakçıları qısa müddət ərzində Zəfər yolunun çəkildiyini, Füzuli Beynəlxalq Hava Limanının inşasını, energetika sisteminin qurulduğunun, yeni evlərin tikildiyinin, qədim tarixi mədəni-dini abidələrimizin bərpa olunduğunu gözləri ilə gördülər. Zəfər Qurultayı bir daha dünyaya azərbaycanlıların möhkəm həmrəyliyinin, birliyinin mesajı oldu.

*Nəzakət ƏLƏDDİNQIZI*



# Bu yol Laçın yoludur...

**Hər dəfə Laçından söhbət düşəndə, 30 ilin hicranı vusala çevrilən bu yurd yerinin abadlaşmasını, ona uzanan yolları görəndə, tikilən hava limanında yaxın gələcəkdə təyyarələrin qalxmasını, enməsini xəyal edəndə gözlərim önündə geniş bir yol canlanır. Bu yol Laçın yoludur. Bizi əzəli yurd yerimizdən, qədim ata-baba torpaqlarımızdan birinə aparacaq yol... Bu yollar nələrə şahid yollar idi, İlahi? Birinci Vətən Müharibəsindən ta üzü bəri bu yolların sinəsindən nələr keçib, bu yollar nələrə tab gətirib. 30 il düşmən döyənəyi, ölkəsində qərib yollar... Gözü yolda yollar... Yol olasan, yol gözləyəsən, bax dərd bu dərd idi...**

Bu yollar indi hamardır, yenidir, gözəldir, genişdir, bir də ki, dərdsiz-qəmsizdir. Günəşlidir bu yollar. Qıvrıla-qıvrıla dağların sinəsinə doğru uzanan yollar sanki səma ilə sevdalıdır, bir nəfəsə ona çatmağa tələsir. Bu, elə bir gözəllikdir ki, yüz danışan olsa da, yalnız öz gözünlə görüb heyranı olmalısan. Bu yollarla Laçına üz tutub o bənzərsiz təbiət ərmağanının qonağı olmalı, yalnız bu halda Laçın nə Laçınmış, görməlisən...

## Düşmənə göz dağıdır Laçın

2020-ci ilin 44 günlük payızında işğaldan azad olunmuş torpaqlarımızın ardınca Laçın da azadlığına qovuşdu. 10 noyabrda Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış birgə Bəyanatla dekabr ayının 1-də Laçın 30 ildən sonra anası Azərbaycana qovuşdu. Bu müjdəli xəbəri də ölkəmizin başçısı, Ali Baş Komandanımız cənab İlham Əliyevdən aldıq: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Azərbaycan Respublikasının Prezidentinin xalqa müraciətindən: "Laçın rayonunun strateji əhəmiyyəti, eyni zamanda ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir. Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib. Onu da bildirməliyəm ki, Bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə, 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir".

Dövlətimizin başçısı onu da vurğulayırdı ki, uzun illər ərzində - 30 ilə yaxın aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı olan məsələ həmişə çox önəmli və ayrı bir mövzu kimi müzakirə olunurdu. Ermənistan tərəfi, ümumiyyətlə, hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Əfsuslar olsun ki, bəzi Qərb dairələri bu mövqeyi dəstəkləyirdi. Bu da Ermənistanın mövqeyini daha barışmaz edirdi və demək olar ki, düşmən tamamilə azğınlaşmışdı. Bunun nəticəsində, məhz Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. İşğaldan azad edilmiş digər yerlərdə qanunsuz məskunlaşma baş verirdi, amma bu dərəcədə yox, bu həcmdə yox.

Beləliklə Laçının işğaldan azad olunması ikiqat qələbə sevincini bizə bəxş etdi. Ölkəmizin başçısının uzun illər apardığı danışıqların, həyata keçirdiyi tədbirlərin nəticəsi olaraq bu qədər böyük əhəmiyyətə malik olan yurd yerimiz ermənilərin və onların havadarlarının istəklərinin əksi olaraq geri qaytarıldı. Laçın ermənilərə göz dağı oldu.

## Yollar bizi Laçına aparır...

Yeni tikilən yollar da coğrafi quruluşuna görə təbiət gözəli olan Laçının hüsnünə daha bir yaraşıq bəxş edəcəkdir. Laçına azadlığı kimi, abadlıq bəxş edən dövlətimizin başçısının sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolu böyük əhəmiyyətə malik olacaqdır. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun uzunluğu 72,8 kilometr, hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq, 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

Prezident İlham Əliyev iyunun 26-da Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanış olub. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilərək bildirilib ki, Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2-4 hərəkət zolaqlı olmaqla, 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Hazırda yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır.

Qeyd olunub ki, layihə üzrə yol boyunca tikintisi nəzərdə tutulan avtomobil tunellərindən ikisində qazma prosesi davam etdirilir, birinin isə giriş və çıxış hissələrində işlərə başlanılıb. Bu yolların abadlaşması bizi Laçına yaxınlaşdırır. Bu yolların qarış-qarış yenilənməsi bizi yurd yerimizə çağırır. O gün o qədər yaxındadır ki

## Laçın nura boyanır

Laçının bura boyanması ötən ilin fevral ayında Güləbirddə Su Elektrik Stansiyası istifadəyə verilməsi ilə başlandı. Stnsiyanın açılışında iştirak edən Prezident İlham Əliyev: "... Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş - ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər.

Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik".

Laçının nura boyanması üçün görülən işlərin növbətisi 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində yarımstansiyada görülən işlərlə tanış olub.

Dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə verilən məlumatda bildirilib ki, Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün ötən il istismara verilən "Kəlbəcər" yarımstansiyasından Laçının Qorçu kəndinə 42 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq yüksəkgərginlikli ötürücü xətt çəkilir. Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və yolsuzluq şəraitində çəkilən ötürücü xətt üzrə hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılır.

Yüksəkgərginlikli xəttin üzərindəki ildırımötürücü funksiyalı 24 damarlı fiber-optik kabellə internet xətti çəkilir ki, bu da enerji sisteminin idarə olunmasında siqnalların etibarlı şəkildə ötürülməsini təmin edəcək.

Paralel olaraq Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilir. Sistem əhəmiyyətli "Qorçu" yarımstansiyasında idarəetmə mərkəzi, açıq və qapalı paylayıcı qurğular yaradılır.

Vurğulanıb ki, yarımstansiyanın yaxınlığında hava limanı tikilir və Qorçu kəndi mərkəz olmaqla, burada 7 kəndi birləşdirən yaşayış massivinin inşası planlaşdırılır. Yeni yarımstansiya Laçın hava limanını, rayon ərazisindəki hərbi hissələri, gələcəkdə bölgədə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Perspektivdə Laçın dəhlizində 110 kV-luq "Laçın Şəhər" və "Zabux" yarımstansiyalarını tikməklə, Qorçudan Laçın şəhərinə 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkiləcək və Laçın şəhərindən 110 kV-luq yeni xətt çəkilməklə "Şuşa" yarımstansiyası ilə əlaqələndiriləcək.

Ən əsası odur ki, Laçın şəhərindən Güləbird istiqamətində "Qubadlı" yarımstansiyasına ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilməklə enerjisistem üçün mühüm əhəmiyyəti olan və regionun enerji dayanıqlılığını təmin edən dairəvi elektrik təchizat sxemi yaradılacaq.

## "Həkəriçay" su anbarı 7 rayonda 3 milyona yaxın insanı içməli su ilə təmin edəcək

Son illər dünyada qlobal istiləşmə prosesi insanları həllifçətin su problemləri ilə üzüzə qoyub. Azərbaycan da bu problemdən heç də kənarda deyil. 30 il işğal altında qalan torpaqlarımızda böyük su mənbələri hesabına su ehtiyatları yaratmaq mümkün olsa da, bu sərvətimizdən istifadə edə bilmədik. Digər sərvətlərimiz kimi, sularımız da düşmənin istədiyi istiqamətə axıdıldı.

Lakin artıq o günlər geridə qaldı. Şanlı Zəfərimiz torpaqlarımız kimi, bütün sərvətlərimizi də bizə qaytardı. İndi Qarabağın inkişafı, yenidən qurulması, abadlaşması dövlətimizin diqqət mərkəzində olan birinci məsələdir. Odur ki, bu torpaqlardakı sərvətlərin də istifadəsi həmin işlərlə paralel şəkildə aparılır. Laçın rayonunda "Həkəriçay" su anbarı da bu məqsədlə tikiləcək.

Prezident İlham Əliyev Laçın səfəri çərçivəsində su anbarının layihəsi ilə də tanış olub. Dövlətimizin başçısına layihə barədə verilən məlumatda bildirilib ki, işğaldan azad olunmuş ərazilər həm təbii ehtiyatlar, biomüxtəliflik, meşə ərazilərinin bolluğu, həm də su ehtiyatları baxımından çox zəngindir. Azərbaycanda formalaşan su ehtiyatlarının təqribən 20 faizi məhz bu ərazilərin payına düşür. Başlanğıcını Laçın rayonu ərazisindən götürən Həkəri çayının uzunluğu 113 kilometr, orta illik su sərfi saniyədə 10,7 kubmetrə yaxındır. Həkəridə tutumu təxminən 90 milyon kubmetr olan su anbarı tikməklə buradakı təmiz, genetik faydalı suyu 254 kilometr uzunluğunda magistral yolla Sabirabada qədər gətirmək mümkündür. Artıq bu sahədə müvafiq tədqiqatlar aparılıb. Hazırda layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir.

Qeyd edilib ki, "Həkəriçay" su anbarı içməli suyun toplanması üçün nəzərdə tutulur. Magistral üzərində nasos stansiyalarının tikilməsi ilə nisbətən hündür coğrafi ərazidə yerləşən 7 rayona suyun verilməsi planlaşdırılır. Layihənin istifadəyə verilməsi nəticəsində 3 milyona yaxın insanı içməli su ilə təmin etmək mümkün olacaq.

## Laçın Beynəlxalq Hava Limanı relyefinə görə dünyada ilkdir

Ötən ilin avqust ayında Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının təməlini qoydu, Laçına həqiqətən də yeni həyat bəxş edəcək hava limanı barədə dedi: "Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq".

İyunun 26-da Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olub. Dövlətimizin başçısına hava limanında görülən işlər barədə məlumat verilərək bildirilib ki, təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2024-cü ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq.

Laçın dağlıq bölgə olduğuna görə ərazinin planlaşdırılması işləri davam etdirilir. Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək. Aeroportun hava hərəkətini idarəetmə qülləsinin, transformator binalarının, nəzarət-buraxılış məntəqəsinin və digər yardımçı tikililərinin layihələndirilmə işləri də başa çatdırılıb.

Laçın Beynəlxalq Hava Limanında yaradılacaq şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Qeyd olunub ki, hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının tam inkişafına da imkan verəcək.

Prezident İlham Əliyev Kəlbəcərdə "İstisu" sanatoriyasının təməlqoyma mərasimində çıxış edərkən Laçın hava limanından da söhbət açıb və deyib: Laçın rayonunda yeni hava limanı inşa edilir. Bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın rayonunda və Kəlbəcər rayonunda düz yerin olmamasıdır. Ona görə biz dağları yarırıq, dağları kəsirik ki, zolaq üçün uyğun şərait yaradılsın. Ona görə bu torpaq işləri hələ gələn il də davam edəcək. Ümid edirəm ki, 2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanı açılacaq və ondan sonra gediş-gəliş daha rahat olacaq. Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur. Təbii gözəllik - çaylar, bulaqlar, meşələr - biz bütün bu sərvətdən məhrum idik, ermənilər bizim xalqımızı məhrum etmişdilər. Otuz il ərzində bizim təbii sərvətlərimizi istismar edir, ağaclarımızı kəsirdilər, - 60 min hektar ağac fondu, meşə fondu məhv edilib, - çaylarımızı zəhərləyir, binalarımızı sökür, qızıl yataqlarımızı qanunsuz istismar edirdilər. Hər şeyi qanunsuz edirdilər. Bu gün erməni vəhşiliyi haqqında dünyada kifayət qədər böyük məlumat var və biz bu məlumatı daha da genişləndirəcəyik.

Bəli, dövlətimizin başçısının da vurğuladığı kimi, Laçın Beynəlxalq Hava Limanının tikintisi tarixi, çoxları üçün gözlənilməz hadisə, hətta möcüzə oldu. Çünki bu hava limanı bir yenilikdir. Burada heç vaxt hava limanı olmamışdır. Laçını əldən vermək istəməyən ermənilər 2024-cü ildə istifadəyə verilməsi nəzərdə tutulan hava limanına enən və buradan səmaya qalxan təyyarələri gördükcə məğlubiyyətlərinin acısını bir daha yaşamalı olacaqlar.

## Prezidentin işğaldan azad edilmiş rayonlara hər səfəri bu bölgələrin sabahından söhbət açır

2020-ci ilin 44 günlük payızında torpaqlarımızın işğaldan azad olunması uğrunda İkinci Vətən Müharibəsində strateji tədbirlər necə ardıcıllıqla cərəyan edirdisə, əvvəlcədən düşünülmüş, planlı şəkildə həyata keçirilirdisə, postmüharibə dövründə azad torpaqlarımızın abadlaşdırılması işləri də eyni qaydada- planlı şəkildə həyata keçirilir. Nəyi nə vaxt edəcəyini müəyyən edən dövlət rəhbərimiz bu torpaqlarda hansı işin əvvəl, hansı işin onun ardınca görülməsini də müəyyən edir və nəticə etibarilə torpaqlarımıza sistemli şəkildə həyat qayıdır. Cənab Prezidentimiz müharibədən sonra azad edilmiş torpaqlarımıza dəfələrlə səfər edib və hər səfəri yaddaqalan hadisələr toplusuna çevrilib.

İyun ayının 26-da Silahlı Qüvvələr Günü dövlətimizin başçısının Kəlbəcər və Laçın rayonlarında olması, həmin gün Kəlbəcər rayonunda yeni hərbi hissənin açılışında iştirakı, dəyərli çıxışı bu bayrama ikinci bayram qürurunu, sevincini əlavə etdi. Kəlbəcərdə yeni hərbi hissənin açılması ordu quruculuğu işinə növbəti töhfə, kəlbəcərlilərə ata-baba yurdlarının daha yaxşı qorunması üçün bir mesaj, eyni zamanda xalqın yeni bir qürur hissi yaşaması oldu. Bəli, qürur duyduq ki, müharibədən ötən ilyarımlıq bir zaman kəsiyində ölkəmizdə belə möhtəşəm tədbirlər həyata keçirilir, azad rayonlarımız yenidən qurulur, abadlaşdırılır, insanların doğma yurd-yuvalarına rahatlıqla qayıtmaları üçün bu qədər işlər görülür. Prezident İlham Əliyevin dediyi kimi:Yəni, biz hərtərəfli iş görürük - həm infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər. Cəmi bir il yarım ərzində görülən bütün işləri sadalamaq mümkün deyil. Bu, onu göstərir ki, biz bu torpaqların sahibləriyik. Bu torpaqlar 30 il ermənilərin əlində idi. Nə qoyub getdilər? Xarabaxana, viran qoyulmuş şəhərlər, kəndlər! Dəfələrlə demişəm, hər dəfə də bu dağıntıları görəndə bir daha deyəcəyəm: Elə bil ki, burada vəhşi qəbilə yaşayıb. Burada ondan da eybəcər işlər görülüb - ancaq dağıtmaq, sökmək, yandırmaq. Bu qədər nifrət, bu qədər qeyri-insani hərəkət, görəsən, haradan qaynaqlanır? Bunu gərək psixoloqlar, yaxud psixiatrlar bizə desinlər. Çünki normal adam bu əməllərə əl atmaz.

Dövlətimizin başçısının budəfəki səfərində Kəlbəcər və Laçın rayonlarında 10-dan artıq obyektin istifadəyə verilməsi, təməlinin qoyulması, görülən işlərlə tanışlıq minlərlə itki hesabına geri aldığımız torpaqlarımızın sabahından xəbər verir. O sabah bu gündən çox nurlu, işıqlı görünür. O sabahlar bizə bu yurd yerlərimizin dünyaya səs salacaq gələcəyindən söhbət açır. Dünya turistlərini qoynunda qonaq edəcəyindən, İşğal və Zəfər muzeylərinin hər birinin onlara tarixi ədalətdən söhbət açacağından danışır. O günlər isə uzaqda deyil. Gözlərimiz önündə reallaşan hər bir tədbir bizi o günlərə saatbasaat yaxınlaşdırır.

Laçına gedən yollar kimi, işğaldan azad olunan bütün rayonlarımıza da yollar gedir, abad, azad yollar. Şuşaya, Kəlbəcərə, Füzuliyə, Cəbrayıla, Zəngilana... hər birinə. Bu yollar bizim yurdlarımıza gedən yollardır. O yollarla biz gedəcəyik... Əbədi.

***Mətanət MƏMMƏDOVA***

## "Solovyov efirdə rəsmən Azərbaycandan üzr istəməyə məcbur edildi"

"Rusiya mətbuatı yekrəng deyil, burada müxtəlif siyasi, korporativ maraqlara xidmət edən mətbu orqanlarının, istər çap, istərsə də elektron olsun) olması anlaşılan və izah edilləndir, bu da mətbuatın maliyyəyə olan ehtiyacı ilə əlaqədardır". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.



Onun sözlərinə görə, Rusiyada istər dövlət tərəfindən maliyyələşdirilən, istərsə də müstəqil (onların da əksəriyyəti Qərb və ya sistemdən kənar müxalifətlə əlaqədardır) KİV-lərin, mətbu orqanlarının erməni diasporu ilə əlaqələrinin olması məlumdur: "Bir qayda olaraq diasporanın lobbiçilik etdiyi məlum KİV-lər və ya mətbu orqanlar antiazərbaycan xarakterli informasiyaların və ya məlumatların efir məkanına, çap vasitələrinə çıxarılması üçün sifarişlər alırlar. Pulu kim verirsə, musiqini də o sifariş edir müstəvisində öz işlərini quran bu qurumlar uçun onların korporativ maraqları daha böyük prioritet kəsb edir, maraqlıdır ki, Rusiyanın dövlətçilik siyasətinin həyata keçirilməsi, təbliğ olunması üçün məsuliyyət daşıyan media qurumlarının hərəkətlərində də belə hallar müşahidə olunur. Rusiyanın RİA Novosti kanalının Azərbaycan ərazisində fəaliyyətinə yasaq qoyulması məhz onun antiAzərbaycan xarakterli informasiya materiallarını yayımlaması ilə əlaqədar olmuşdur. Rusiyanın ideoloji maşının əsas ruporlarından olan V.Solovyovun bu günlərdə özünün aparıcılıq etdiyi məlum verilişdə Azərbaycandan iki dəfə üzr istəməsi bu baxımdan diqqətəlayiq hadisədir".

E.Manafov onu da bildirdi ki, Solovyovun Qarabağdakı separatçı rejimin "xarici işlər naziri" ilə təşkil etdiyi musahibə antiAzərbaycan xarakterli olduğundan haqlı olaraq rəsmi Bakının narazılığına səbəb olmuşdur: "Belə ki, Solovyov təkcə jurnalistikanın qərəzsiz və obyektiv olaraq məsələləri işıqlandırmaq prinsipini pozmayıb, eyni zamanda, bu ilin fevralında Azərbaycan və Rusiya arasında müttəfiqlik münasibətləri barədə müqavilənin məzmun, tələb və ruhuna zidd olan hərəkətə yol verib, həmin müqavilədə isə tərəflər arasında informasiya təhlükəsizliyi ilə bağlı müddəa da əksini tapmışdır. Erməni diasporası ilə münasibətlərinin olması amili nəzərə alınarsa V. Solovyovu efirdə rəsmən iki dəfə Azərbaycandan üzr istəməyə məcbur edən faktor təbii ki, Kremlin təbliğata məsul qurumu tərəfindən jurnalistə olan təzyiq olmuşdur, bu isə ona dəlalət edir ki, rəsmi Moskva Bakı ilə məlum müqavilənin imzalanmasından sonra Azərbaycanla münasibətlərə daha həssas, ehtiyat və təmkinlə yanaşır. Rəsmi Bakını narazı sala biləcək hərəkətlərdən özünün regional maraqlarından çıxış edərək çəkinir. Azərbaycanla istər ikitərəfli, istərsə də regional əməkdaşlıq formatında münasibətlərə böyük önəm və əhəmiyyət verir. Bununla belə Ermənistan Rusiyanın istər KTMT, istərsə də AİB çərçivəsində müttəfiqidir və bu formatda münasibətlər qaldıqca Rusiya münaqişə tərəfləri ilə münasibətləri ikili standartlardan yanaşmaqda davam edəcək, Rusiyada Kremlin siyasətinə təsir göstərə biləcək faktorlar sırasında Putinlə sıx təmasda olan iş adamlarının, ölkənin sistem müxalifətini təmsil edənlərin, hərbi sənaye kompleksinin, xüsusi xidmət orqanlarının arasında erməni diasporasının təmsilçiləri ilə əlaqələrin olması amili nəzərə alınarsa Kremldən media durumlarına sifarişli zəmində informasiyaların ötürülməsi anlaşılandır".

***Gülyana***

# Vətəni yaşadan vətənpərvərlik ruhu...

**Salatın Əsgərova, Alı Mustafayev, Osman Mirzəyev, Çingiz, Mustafayev, Arif Hüseynzadə, Fəxrəddin Şahbazov, Sirac Abışov, Məhərrəm İbrahimov - onların hər biri qorxu-hürkü bilmədən, Vətən qarşısında öz vəzifələrini icra edərkən qanlı erməni terrorunun qurbanlarına çevrilən jurnalistlərimiz, reportyorlarımız və operatorlarımızdır... Və onların hər birinin qəlbi ayrı-ayrı vaxtlarda olsa belə, eyni məqsəd üçün döyünürdü - Vətən üçün, dövlət üçün, AZƏRBAYCAN üçün!**

Məsələ həm də ondadır ki, əgər Azərbaycan əsgəri, zabiti Vətən torpaqlarını əlindəki silahlı ilə yağı düşməndən azad edirsə, Azərbaycan jurnalistinin, operatorunun silahı onun qələmi, fotoaparatı və videokamerasıdır. İstər 44 günlük Vətən müharibəsində, istərsə də birinci Qarabağ müharibəsində cəbhədə iki cinah düşmənə qarşı döyüşürdü - hərbçilərimiz və jurnalistlərimiz. Hərbçilərimiz düşmənlə müharibə meydanında döyüşərkən, jurnalist və operatorlarımız müharibə reportyorları olaraq informasiya savaşında qorxmadan mübarizə apardılar. Cəbhədə ən qızğın döyüşlərin baş verdiyi nöqtələrdən informasiyalar, kadrlar hazırlayan qəhrəman media işçiləri əlbəttə ki, hər təhlükəni, hətta şəhid olmaq ehtimalını da gözə alırdılar. Belə bir məqamda isə qorxu amili arxa plana keçir. Çünki ön planda, eləcə də qəlbin dərinliklərində milli dəyərdən, qandan və candan gələn, VƏTƏNPƏRVƏRLİK RUHU deyilən faktor dayanır. Misal üçün, biz heç vaxt 1991-ci ilin 9 yanvar tarixində vəzifəsini icra edərkən mənfur erməni terrorçularının xain gülləsinə tuş gələrək şəhid edilən ilk qadın jurnalistimiz Salatın Əsgərovanı həmin ilin 20 noyabr tarixində - Qarakənd üzərində vurulan helikopterdəki şəhid jurnalistlərimiz - Alı Mustafayevlə, Osman Mirzəyevlə, Arif Hüseynzadə ilə, Fəxrəddin Şahbazovla eləcə də, 1992-ci ilin iyun ayının 15-də, Əsgəranın Naxçıvanik kəndində düşmən snayperinin açdığı atəş nəticəsində həyatını itirən Çingiz Mustafayevlə fərqləndirə bilmərik. Əgər onların fəaliyyətlərini uzlaşdırsaq, hər birini bir müqəddəs söz birləşdirir - ŞƏHİDLİK ZİRVƏSİ...








Bəli, onlar Qarabağa reportaj hazırlamağa gedərkən bilirdilər ki, qarşılarına hansı həyati təhlükələr çıxa bilər və bir gerçəkliyi də dərk edirdilər ki, gedilən bu yolun geriyə dönüşünün olmaması ehtimalları da var. Ancaq ruhən formalaşmış vətənpərvərlik ideyası, bu ideyanın dönməzliyi, sırf əqidə məfkurəsinə bağlılığı bütün keçilməz sədləri aşdı. Onlar Vətən uğrunda şəhid olmağa hazır olduqlarını əməli qaydada isbatladılar, sübuta yetirdilər. Həqiqət isə budur ki, geridə qalan zamanlar əsla heç nəyi dəyişmir, belə ki, bu dəyişilməzlik müqəddəs şəhidlik, vətənpərvərlik adları üzərində cəmlənib. Yəni zaman başqa ola bilər, amma məramın və məkanın ünvanı VƏTƏNDİR!

Biz əminliklə qənaətə gələ bilərik ki, şəhid jurnalistlərimizin hər birinin evində onların ata və anaları, nənə və babaları vətənpərvərlik mövzularını təlqin ediblər. Axı ulularımız da hər zaman deyiblər ki, bir körpənin təməli onun evində, ailəsində qoyulur və təməli necə qoyulursa elə də həyat formalaşır. Bu xüsusda, biz yenidən 44 günlük Vətən müharibəsinə və sonra baş verən proseslərə geri dönməli oluruq...

2021-ci il iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində erməni terrorçularının basdırdığı tank əleyhinə minaya düşərək şəhid olan AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AzTV-nin operatoru Sirac Abışovun da adları şəhidlik zirvəsinə ucaldı. Məhz bu iki həmkarımızın Vətən müharibəsi dövründə və sonrakı müddətdə yerli və dünya mediasına çatdırdıqları xəbər və informasiyalar maraqla izlənilirdi. Jurnalistlərin şəhid olduqları o məşum gündə onlarla eyni avtomobildə olmuş və qəlpə yarası almış AzTV-nin ictimai-siyasi verilişləri redaksiyasının əməkdaşı, televiziya rejissoru Emin Məmmədovla Siracla Məhərrəmin son dəqiqələri haqqında söhbət etdim, nə haqda düşündüklərini soruşdum. Eminin mənə danışdıqlarından isə təsirlənməmək olmur. "Ümumiyyətlə, onların hər ikisi son bir neçə gündə qayğılı görünürdülər, yarım qalmış işləri barədə düşünür, planlarını qururdular", deyən Emin hələ də onların həyatda olmadıqlarına inanmadığını deyir. Emin Məmmədov hazırda arxivində saxladığı videogörüntülərlə özünə təskinlik verdiyini, bununla sakitlik tapdığını mənə danışır, sonda isə bu sözlərini ifadə edir: "Hər ikisi layiqli Vətən övladları idilər, gözlərində az da olsa qorxu hissləri yox idi. İstər Sirac, istərsə də Məhərrəm yalnız irəliyə gedərək həsrətində olduqları torpaqları gəzmək, düşüncələrini isə oralardan reportajlar hazırlamağa fokuslamışdılar...".

Əbəs deyil ki, Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyev ölümlərindən sonra Sirac Əliyevə və Məhərrəm İbrahimova "3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edib. Məhz Vətənə xidmətə görə, onların öz canlarını "uf" demədən Vətən uğrunda qurban verdiklərinə görə, Vətən torpaqlarına qovuşduqlarına görə...

Vətən sevgisi, vətənpərvərlik eşqi Siracla Məhərrəmi bu dünyadan haqq dünyasına da iki şəhid dost kimi yola saldı, Allah hər ikisinə və cəmi Vətən uğrunda canlarını fəda etmiş bütün vətənpərvər övladlarımıza rəhmət eləsin, ruhları şad olsun. Şad olsun ki, onlar müqəddəs amal uğrunda, şərəf və ləyaqət uğrunda şəhidlik şərbətini dadıblar.

Bu məqamda daha bir amilə toxunmaq istərdim. Hələ 44 günlük Zəfər yolunda, Vətən müharibəsi dövründə Ermənistanla və ermənipərəst qüvvələrlə gedən informasiya müharibəsində çoxsaylı jurnalistlər, müxtəlif media təmsilçiləri cəbhəyə getməyə, oradan reportajlar hazırlamağa can atırdılar.

Lakin təbii ki, onların hər birinin döyüşlərin getdiyi qızğın nöqtələrə gedərək materiallar hazırlamaları fiziki cəhətdən qeyri-mümkün idi. Onsuz da arxa cəbhədə də işlər çox idi və əsas hədəf bilavasitə düşmənin informasiya məkanında susdurmaqdan ibarət idi. Kənardan elə də diqqət çəkməyən bu özəlliyin daxilində dayanmış əsaslı dayaq nöqtəsi isə Vətən sevgisi və ondan qaynaqlanan vətənpərvərlik ruhunun danılmaz səciyyəsidir!

Eyni zamanda, sözügedən məsələyə əsaslanan bütün mühüm fəaliyyətlər birbaşa Prezident İlham Əliyevin dünyanın nüfuzlu media mərkəzlərinə verdiyi əsaslı, arqumentli müsahibələrindən, sərt və qətiyyətli bəyanatlarından bəhrələnirdi. Onun hər kəlamı, hər ifadəsi Vətən eşqli qalibiyyət ruhuna stimullar verir, düşmənə qarşı istər cəbhədə, istərsə də media məkanında sarsıdıcı zərbələr endirməyə imkanlar yaradırdı. Və bu gün Azərbaycanın vətənpərvər övladları öz qanları və canları ilə müasir dünyaya Vətən sevgisinin nə olduğunu sübuta yetirdilər - istər hərbçilərimiz, istər media işçilərimiz, istərsə də həkimlərimiz.

Təbii ki, mövzunun əsas özəyində dayanan daha bir faktor da mövcuddur - AZƏRBAYCANÇILIQ! Azərbaycançılıq ifadəsinin daxilində isə bildiyimiz bütün layiqli, şərəfli, qürurlu və vətənpərvərliyə söykənən tendensiyalar mövcuddur. Bu mövcudluq gənclərimizi düşmənə qarşı döyüşə səsləyirdi. Müharibədən sonra belə bir aforizm əbəs yerə yaranmadı - atalarının çəkmə izləri qalan yerlərə tankların üstündə qayıdan oğullar..! Bu oğullar birinci Qarabağ müharibəsində döyüşən, şəhid və qazi olan kişilərin övladları və nəvələri idi və bu oğullar mənfur, yağı və namərd düşmənin gözlərini ağlar qoyaraq onlara işğalın, vəhşiliyin, talanın, soyqırımı törətməyin aqibətinin necə olacağını sübut etdilər. Neçə-neçə Xocalı, Ağdaban və s. qatilləri müharibə qanunlarının tələb etdiyi və layiq olduqları cəzalarını aldılar. 30 il əvvəl yetim qalan körpələrimizin, ər itirən ana və bacılarımızın, nənələrimizin, ömür-gün yoldaşlarını itirən babalarımızın, atalarımızın qisasları artıqlaması ilə alındı - düşmən öz ucuz, qorxaq ölümünə kirli qanı ilə imza atdı!

Vətən yaşayır və onu yaşadan vətənpərvərlik ruhudur!

***Rövşən RƏSULOV***

***Yazı Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun 22 iyul - Milli Mətbuat və Jurnalistika Günü münasibəti ilə şəhid jurnalistlər Məhərrəm İbrahimov və Sirac Abışovun xatirəsinə həsr edilmiş jurnalistlər arasında "Mənəvi dəyərlərimiz: vətənpərvərlik" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur.***

# İgidlər ölməz, Vətən bölünməz!





## Lerikdə şəhid - kapitan Əbülfəz Rəhmətovun xatirəsi anılıb

**Lerik rayonunun Anbu kəndində Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində şəhid olmuş zabiti, kapitan Rəhmətov Əbülfəz Hüseynverdi oğlunun doğum günü xatirəsi anıldı. Lerik tayon icra hakimiyyətinin ,Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatının nümayəndələri, hüquq-mühafizə orqanları, idarə, müəssisə, təşkilat rəhbərləri, şəhidin ailə üzvləri,kənd sakinləri şəhidimizin məzarını ziyarət edib, məzarı önünə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad ediblər.**

Qeyd edək ki, şəhid Rəhmətov Əbülfəz Hüseynverdi oğlu 3 iyul 1989-cu ildə Lerik rayonunun Anbu kəndində anadan olub.2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində kəşfiyyatçı və motoatıcı taborun qərargah rəisi kimi iştirak etmişdir. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 16 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhid Əbülfəz Rəhmətov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib. Eyni zamanda, şəhid Əhmədov Tural Əkrəm oğlunun da məzarı ziyarət olunub. Sonda şəhidin valideyinləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlığını bildirib. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Zümrüd***



## Abşeronda şəhid Rəhim Hüseynovun 38-ci doğum günü qeyd olunub

Düşmən üzərində Zəfər qazandığımız 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsində ucalan, Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medallarına layiq görülən şəhid mayor Rəhim Qədir oğlu Hüseynovun 38-ci doğum günü qeyd olunub. Anım tədbirində Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, YAP Abşeron Rayon Təşkilatının sədri Abbas Əliyev, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri və qazilər iştirak edib.Əvvəlcə iştirakçılar II Fəxri xiyabanda uyuyan şəhidin məzarını ziyarət edib, Vətənimizin bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi yad olunub, ruhlarına dualar oxuyub, məzarları üzərinə tər çiçəklər düzülüb. Şəhidimizin keçdiyi döyüş yolundan danışılıb, onların göstərdiyi xidmətlərdən və şücaətlərdən bəhs edilib.Şəhidin ailə üzvləri də hər zaman dövlətin diqqətində olduqlarını, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısını daim hiss etdiklərini vurğulayaraq, ölkə rəhbərliyinə təşəkkürlərini bildiriblər.

***Rəfiqə***



## Cəbrayıl rayonunda şəhid Məhəmməd Rüstəmovun anım mərasimi olub



Cəbrayıl rayon Şükürbəyli kənd sakini, 1-ci Qarabağ müharibəsinin Şəhidi Rüstəmov Məhəmməd Xasay oğlunun Bakı şəhəri, Yasamal rayonu, Xurşudbanu Natəvan adına kitabxanada, anım mərasimi keçirilmişdir. Anım mərasimində YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev, Cəbrayıl rayon icra hakimiyyəti aparatının hüquq şöbəsinin müdiri Orxan Məmmədov, Milli Məclisin üzvü Rəşad Quliyev, Az. QMƏVŞAİB-nin Cəbrayıl rayon filialınım sədri Səbuhi Hüseynov və Cəmiyyətin üzvləri, kitabxana müdiriyyəti, Cəbrayıl Tarix diyarşünaslıq muzeyinin direktoru Aytən xanım və muzeyin əməkdaşı, şəhid anası Səkinə xanım, şəhidin ailə üzvləri, doğmaları və döyüş yoldaşları iştirak etmişlər. Tədbirdə



Cəbrayıl Uşaq Musiqi məktəbinin və Mehdi Mehdizadə adına Cəbrayıl tam orta məktəbin əməkdaşları və şagirdləri, musiqili, bədii kompozisiya ilə çıxış etmişlər.

***Nəzakət***

# Geyimimiz kimliyimizdir...

**Geyim insanın mənəvi kimliyidir. Bu, bütün dövrlərdə belə olmuşdur. İstər kişi, istər qadın olsun, onun daxili aləmindən söhbət açan ilk olaraq geyimidir. Geyim dəbi, rəngi, uyğun seçilməsi, bədənin qüsurlarını üzə çıxarması və yaxud ört-basdır etməsi ilə diqqəti çəkir və bütün bunlar həmin geyimi daşıyan insan haqqında ilk təəssüratı formalaşdırır.**

Bütün dövrlərdə insanlar geyimə xüsusi önəm veriblər. Dəblə ayaqlaşmaqla yanaşı, özünə yaraşanı geyinmək kimi seçimlər də hər zaman aktual olmuşdur. Qadınlar, kişilər var ki, baxmayaraq ki, ilin dəbi nədir, rəngi nədir, öz seçimləri, özlərinə yaraşanı geyinməklə həmişə çox səliqəli və mədəni görünürlər.

Hə, mədənilikdən söz düşmüşkən, onu da vurğulayım ki, geyim həm də mədəniyyətdir. Özü də böyük mədəniyyətdir. İnsanın dünyagörüşünü, ailə tərbiyəsini, zövqünü ortalığa çıxaran amildir. Müasir dövrümüzdə geyim o qədər aktual mövzuya çevrilib ki, bu məsələyə işıq salmağı, görünənin görünməyən tərəflərinə aydınlıq gətirməyi bir jurnalist kimi özümə borc bildim.

## Geyimimiz xarakterimizdir

Tanımadığımız şəxslə ilkin olaraq geyiminə əsasən tanış oluruq. Kənardan bir baxışla bütün geyimlər onu daşıyan haqqında ilkin məlumatları verir. Bəzən küçədə kilolu bir qadınla rastlaşırsan. Baxırsan ki, geyindiyi paltar heç də bədən ölçülərinə uyğun gəlmir. Geyimi onu daha da kilolu göstərir və yaxud bədən cizgilərini o qədər qabardıb ki, qadın eybəcər bir formaya düşüb. İstər-istəməz düşünürsən ki, bəli, bu qadın qüsurlarını görməyi bacarmır. Hər bir qadının evdən çıxarkən ayna qarşısında dəfələrlə o tərəfə, bu tərəfə dönüb özünə baxmasını nəzərə alsaq, deməli, baxmaq kifayət deyil, gərək görə biləsən.

Bəzənsə normal kiloda olan qadınla rastlaşırıq. Geyiminin onu nə qədər kilolu göstərdiyinin şahidi oluruq. Deməli, seçim düzgün edilməmişdir. Geyimdə tək kilo deyil, yaşdan da söhbət açıb vurğulamaq istəyirəm ki, düzgün seçilməmiş geyimlər həm də qadın və kişiləri yaşlı göstərə bilir. Tanıdığımız, yaşını bildiyimiz qadınları bəzən elə geyimlərdə görürük ki, haradasa 40 yaşlı qadına 55-60 yaş vermək olur. Eləcə də 50 yaşlı qadın bəzən elə geyim seçir ki, bu geyimlə 35-40 yaşda görünür.

Bəzənsə düzgün seçilməyən geyimlərlə gülünc vəziyyətə düşə bilirik. Kənardakıların, ətrafımızdakıların hər birinin diqqətini üzərimizə çəkir, aralarında pıçıldaşmalara səbəb oluruq. Lakin baxırsan ki, heç geyimi ilə diqqətləri çəkən qadın və ya kişinin dünya-aləm vecinə belə deyil. Özünü o qədər sərbəst hiss edir ki, düşünürsən ki, o, ətrafdakılara geyimi ilə meydan oxuyur. Bax, belə hallarda geyimimiz kimliyimizdir nəticəsinə gəlmək olur. Bəli, geyim bir xarakterdir. Tanımadığımız insanla ilk tanışlığımızdır. Tanış olmaq istəyənlərin isə artıq öz seçimidir: istəmək və istəməmək...

## Dəb bizi niyə dəyişməlidir?..

Həyatımıza tez-tez yeni dəblər daxil olur. Bu, həm kişi, həm də qadın geyimlərində, onların tikilişində, qısa, uzunluğunda, rəngində özünü göstərir. Dəbi bir çaya bənzətsək, bu, o demək deyil ki, o sularla axıb gedək. Çünki bəli, dəb bizi öz sularında qərq etməyə qadirdir. O dərəcədə qadirdir ki, o sularda axarkən oradan xilas olmaq üçün əlimizi atıb yapışmağa heç nə tapa bilmirik. Müasir dövrümüzdə bütün yaşlardan olan əksər insanların, xüsusilə, gənclərin geyimi kimi...

Maraqlıdır, indi geyim istehsal edən fabriklər artıq az parça ilə "dəbli" və çox yaxşı, sürətlə satılan geyimlər istehsal edirlər. Bir qarış köynək, bir qarış ətək, bir qarış şort, beldən bir qarış aşağı iri kəsikli şalvarlar, yırtmaçı yenə beldən bir qarış aşağıdan başlayan uzun ətəklər...

Bizlər nə edirik? Dəblə ayaqlaşmağa çalışırıq. Həmin geyimlərdən alıb evlərimizə gətirir, əynimizdə olan örtülü paltarları çıxarıb onları geyinir və utanmadan küçəyə çıxırıq. Universitetlərə yollanırıq, işə gedirik, rəfiqələrimizlə görüşə çıxırıq. Yənu bu geyimlərdə biz hər yerdəyik.

Maraqlıdır, nə üçün dəb bizi dəyişir? Nə üçün biz dəbi dəyişə bilmirirk? Bu cür paltarlar alınmasa, mağazalarda asılı qalsa, yəqin ki, uğursuz dəblər kimi üzüqoylu fabriklərə qayıdar və istehsalçı da görər ki, işi nə qədər uğursuz alınıb, ikinci dəfə istehsal etdiklərinə diqqətlə yanaşar. Və yaxud da, bu cür geyimləri övladlarımıza alanda, onları bu geyimlərlə qapıdan bayıra yola salanda nə düşünürük görəsən? Düşünürük ki, müasirik, nə qədər dəblə geyinirik? Əsla. Bu nə müasirlik, nə də düşündüyümüz dəbdir. Bu, sadəcə baxmaq, açıq qalan nayihələri görməməkdir. Hansı ki, paltar bineyi-qədimdən örtmək məqsədilə icad edilmişdir. Bəs belə isə biz əynimizə paltar alırıq, yoxsa qapadılmalı olan hissələrimizi bayırda qoymağa pul veririk?

Söhbətimiz tək qızlara deyil, həm də oğlanlara aiddir. Onlar da həmin geniş kəsikli şalvarlardan, rəngbərəng-hər tayı bir rəngdə olan corablardan istifadə edirlər. Bəzən o qədər gen şalvar geyinirlər ki, qadına bənzəyirlər, bəzən də o qədər dar şalvar geyinirlər ki, özlərinə oxşamırlar.

Eləcə də digər yaşda olan xanımlar və kişilər də var ki, geyimləri ilə diqqəti cəlb edir, özlərindən yaşca kiçik olanlara pis nümunə olurlar. Həqiqətən də hər yaşın öz gözəlliyi var. O yaşa uyğun geyim də yerində olanda, insanı bir qədər də gözəlləşdirir. Lakin çox təəssüflər olsun ki, bəziləri üçün bu, heç də belə deyil. Dar şalvar və həddindən artıq qısa ətəklər, sinəsi aşırı dərəcədə açıq köynəklər bir qədər yaşı olan qadının düşünək ki, nə kimi qüsurlarını meydana çıxara bilər... Düşünək!

## Geyim mentalitetdir

Belə bir deyim var: insanı geyimi ilə qarşılayıb, ağlı ilə yola salarlar. Gözəl deyimdir. Lakin bu deyimin müasir dövrümüzlə əlaqəsi bir qədər zəifdir. Ona görə ki, indi bu deyimi bütün insanlara aid etmək olmaz. Çünki əksəriyyətimizin geyimi haqqımızda öz sözünü deyir. Qalır az sayda insan ki, onlar da bəli, geyimi ilə qarşılanıb, ağlı ilə yola salına bilər.

Geyim indiki cəmiyyətimizin gündəmdə olan ən aktual məsələlərindən biridir. Çünki əvvəlki illərin geyimləri ilə müasir geyimlər arasında böyük fərq var. Amma unutmamlı olduğumuz bir məsələ də var ki, geyim həm də mentalitetimizdir. Bir zamanların milli geyimləri ilə bugünkü geyimləri yan-yana qoyanda aralarındakı fərq artıq yerdən göyə qədər olan məsafə qədərdir. Biz nə etmişik? Həmin geyimləri qoruyub saxlamaq əvəzinə, onları "müasirləşdirə-müasirləşdirə" bugünkü vəziyyətə gətirib çıxarmışıq. Bəlkə də cəmiyyət arasında sorğu aparılsa, bunun günahını bir-birimizin üstünə atacağıq. Lakin məsələyə ədalətlə yanaşdıqda, geyimlərimizin bu hala düşməsinin səbəbkarları hər birimizik. Onları istehsal edənlərdən tutmuş alıcısı olan hər birimiz günahkarıq. Çünki bu elə bir məsələdir ki, ona müdaxilə etməyə, münasibət bildirməyə hər birimizin haqqı var.

Bəlkə də yazını oxuyanların əksəriyyəti məni köhnə fikirli, dəblə ayaqlaşmayan, müasirlikdən kənar adlandıracaqlar. Adlandırsınlar. Lakin cəmiyyətimizin əksər hissəsi də mənim dediklərimi təsdiqləyər ki, biz milli-mənəvi dəyərlərimizə uyğun geyinməli, mentalitetimizə hörmətlə yanaşmalıyıq.

Çox gözəl, həm zövqü, həm yaraşması, həm rəng seçimi ilə gözoxşayan geyimlər geyinən qadın və kişilərimiz var. Biz bu geyimlərdən nümunə götürməliyik. Kənardan təklif olunan geyimlərlə mentalitetimizə zərbə vurmamalıyıq. Gözlərimizi açıb cəmiyyətə daha yaxşı baxmalı, övladlarımızın nə geyindiklərinə diqqət etməliyik. Düşünməliyik ki, bu geyimlər bizim cəmiyyətimizi haraya aparır. Sabah geç olacaq, elə bu gün düşünmək lazımdır...

***Mətanət MƏMMƏDOVA***





# Türkiyə hərəkətə keçdi: İsveç və Finlandiya şərtlərə əməl edəcəklərmi?

**Türkiyə hərbçiləri Suriyanın Rakka vilayətinin şimalına daxil olub. Faktı Suriyanın SANA agentliyi də təsdiq edib. Məlumatda deyilir ki, Suriyanın qərb və şərq rayonlarını birləşdirən strateji M4 magistralının yaxınlığındakı Ayn İsa bölgəsində Türkiyə zirehli texnikası karvanı görünüb. Magistral xəttiin ələ keçirilməsi YPG-nin nəzarətində olan Kobani bölgəsinin Əl-Qamışlı şəhəri ilə əlaqəsini kəsəcək. Burada Türkiyə hakimiyyətinin PKK-nın Suriya qolu hesab etdiyi "Suriya Demokratik Qüvvələri"nin (SDS) qərargahı yerləşir.**

NATO çərşənbə günü rəsmi olaraq İsveç və Finlandiyaya hərbi bloka qoşulmaq üçün dəvət göndərib. Daha əvvəl üç ölkə qarşılıqlı maraq memorandumu imzaladıqdan sonra Türkiyə yaşıl işıq yandırmışdı. Bundan sonra Ankara terror təşkilatları ilə birbaşa əlaqəsi olan şəxslərin ekstradisiyası üçün Skandinaviya dövlətlərinin hakimiyyət orqanlarına sorğu göndərəcəyini vəd edib. Üçtərəfli razılaşmaların əldə olunması prezident Rəcəb Tayyib Ərdoğanın diplomatik qələbəsini göstərə bilsə də, çox şey şimal Avropa oyunçularının öhdəliklərini yerinə yetirməyə hazır olub-olmamasından asılı olacaq.




Finlandiya və İsveçin tezliklə üçtərəfli razılaşmanın şərtlərinə əməl etməyə hazır olduqlarını nümayiş etdirməli olduqlarını Türkiyənin Ədliyyə Nazirliyi açıq şəkildə bildirib. Məlumata görə, Ankaraya görə ya solçu radikal Kürdüstan Fəhlə Partiyası (PKK), ya da qaçaq vaiz Fətullah Gülənin hərəkatı ilə bağlı Stokholm və Helsinkiyə insanların ekstradisiyasına dair 33 sorğu göndəriləcək. Türkiyə tərəfi artıq avropalılara məlumat verib ki, öz yurisdiksiyasında olan bütün təqsirləndirilən şəxsləri mühakimə etmək istəyir. Türkiyənin ədliyyə naziri Bəkir Bozdağ "Razılaşmadan sonra onların ekstradisiyası ilə bağlı bir daha yazacaq və xatırladacağıq" deyib.

Madriddə NATO toplantısı ərəfəsində Ankara ilə imzalanan üçtərəfli saziş çərçivəsində Stokholm və Helsinki "milli təhlükəsizliyə təhdidlərlə mübarizədə" tam dəstəklərini ifadə ediblər. Bunun fonunda Skandinaviya oyunçuları təkcə Gülən tərəfdarlarına deyil, Suriyanın şimalında fəaliyyət göstərən PKK-YPG silahlılarına da dəstək verməkdən imtina ediblər. "Tərəflər terrorizm, mütəşəkkil cinayətkarlıq və digər ümumi çağırışlarla mübarizədə konsensus əsaslı əməkdaşlığı gücləndirmək üçün bütün səviyyələrdə, o cümlədən hüquq-mühafizə və kəşfiyyat orqanlarında dialoq və əməkdaşlıq üçün strukturlaşdırılmış hökumətlərarası mexanizm yaradacaqlar", - deyə memorandumda deyilir. İsveçdə üçtərəfli razılaşma dərhal bu ölkənin Sol Partiya və Yaşıllar tərəfindən pislənilib.

Sonuncular, Stokholmun Türkiyə tərəfi ilə 2019-cu ildə Suriyanın şimalında "Sülh mənbəyi" hücum əməliyyatından sonra dayandırılmış hərbi-texniki əməkdaşlıq sahəsində əlaqələri dayandırmağa hazır olmasından xüsusilə narahat olub. İsveçin müstəqil deputatları hətta xarici işlər naziri Ann Lindeni etimadsızlıq göstəriləcəyi ilə hədələyiblər. Bu ssenarinin şübhəli görünməsinə baxmayaraq, aydınlıq gətirmək üçün hələ də diplomatik siyasət rəhbərinin parlamentin xarici siyasət komitəsindəki dinləmələrdə iştirak etməli olacağı artıq göz qabağındadır.

Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov Finlandiya və İsveçin NATO-ya üzvlüyü ilə bağlı Türkiyənin təsdiq etdiyi yanaşmaya reaksiya verərək deyib ki, Skandinaviya ölkələri son nəticədə "Xarici siyasət və müdafiə suverenliyinin bir hissəsini Vaşinqtona və NATO-nun digər yüksək səviyyəli tərəfdaşlarına verirlər". "Bu, heç bir şəkildə bizim siyasətimizə təsir etmir", - diplomat əmin edib. "Ancaq biz hər hansı genişlənmə dalğalarından, Ankara, Stokholm və Helsinki arasında Madrid sammiti ərəfəsində əldə edilə biləcək hər hansı razılaşmalardan asılı olmayaraq, təhlükəsizliyimizin və müttəfiqlərimizin təhlükəsizliyinin istənilən şəraitdə təmin edilməsi üçün hər şeyi edəcəyik".

Financial Times-a danışan Qərb rəsmiləri öz növbəsində etiraf ediblər ki, Ərdoğan İsveçin və Finlandiyanın NATO-ya üzvlük cəhdlərinə veto qoyulması məsələsindən Türkiyənin dördüncü nəsil F-16 qırıcısının yenilənməsini dəstəkləmək üçün prezident Cozef Bayden administrasiyasından razılıq almağa çalışırlar. Bu məsələ Ankara üçün xüsusi əhəmiyyət kəsb edir, çünki o, Rusiyanın S-400 zenit-raket komplekslərinin (SAM) alınması ilə əlaqədar daha təkmil F-35 təyyarələri proqramından çıxarılıb. Bununla belə, Financial Times həmsöhbətlərinin aydınlaşdırdıqları kimi, Türkiyə tərəfi məqsədinə nail ola bilməyib: Ağ Ev F-16-ların tədarükünə qarşı olmadığını, lakin çox şeyin Konqresdən asılı olacağını açıq şəkildə bildirib.

Ola bilsin ki, Türkiyə, Finlandiya və İsveç arasında uzlaşmanın görünən nəticəsi Skandinaviya ölkələrinin Ankara və ona sadiq müxalifət qruplarının Suriyada növbəti hücum əməliyyatına səssiz razılıq verməsi olacaq. Yaxın Şərq ölkəsinin hakimiyyət orqanları son bir neçə ay ərzində onun ehtiyacı barədə fəal şəkildə danışır. Prezidentin sözçüsü İbrahim Kalın ötən gün "Prezidentimiz əməliyyatın hər an başlaya biləcəyini söylədi" deyib. "Bizi təhdid edən kimi qiymətləndirmə aparılacaq və lazım olan hər şey ediləcək".

Bütün bunların fonunda Ankara rəsmi Dəməşqlə hətta rəsminin açıqlamalarından sonra kəşfiyyat orqanları səviyyəsində əlaqə saxlayır. Qətər Universitetinin İbn Haldon Humanitar və Sosial Elmlər Mərkəzinin dosenti Əli Bakir mətbuata açıqlamasında deyib ki, NATO-nun baş katibi Yens Stoltenberqin himayəsi ilə bağlanan üçtərəfli saziş, əlbəttə ki, Türkiyə və onun rəhbərliyinin böyük qələbəsidir. "Saziş Ankaranın tələblərinə cavab verir", - analitik etiraf edib. "Düşünürəm ki, bu, NATO-nun daha güclü təhlükəsizlik ittifaqına çevrilməsinə kömək edəcək həmrəylik üçün böyük addımdır".

Bununla belə, Əli Bakir qeyd-şərt qoyur: söhbət sazişin həyata keçirilməsindən gedirsə, İsveç və Finlandiyanın sövdələşmə şərtlərinə necə əməl edəcəyini görmək qalır. "Bütövlükdə Qərb ölkələrinin öz öhdəliklərini yerinə yetirməməsinin uzun tarixi var", - Bakir qeyd edib. - Bundan əlavə, PKK-ya və onun Suriyadakı qollarına birbaşa və ya dolayısı ilə dəstək verən yeganə dövlətlər İsveç və Finlandiya deyil. Başqa ölkələr də var".

Ekspert qeyd edir ki, müxtəlif mənbələrdən edilən bəzi dəstək Suriyanın şimalında fəaliyyət göstərən yarımhərbi təşkilatlara hələ də çata bilsə də, zaman keçdikcə işlər çətinləşir. "Türkiyə eyni diplomatik və hərbi yolla getməyə davam edir və artıq Suriya və İraqda terror qruplaşmasına qarşı əməliyyatlara başlayıb", - Bakir yekunlaşdırıb. Beləliklə, Türkiyə NATO-nun Madrid sammitində istədiyinə nail oldu. Amma hələ də narahatlıqlar var. İsveç və Finlandiya Türkiyənin təhlükəsizliyinə təhdid olan terror təşkilatlarına hər cür dəstək verməyi tərgidəcəklərmi? Bu sualın cavabı... Bunu zaman göstərəcək...

***V.VƏLİYEV***

# Bir ömrün zirvəsi



Azərbaycan xalqı öz müstəqilliyi, azadlığı, ərazilərinin bütövlüyü uğrunda mübarizədə tarix boyu çoxlu şəhidlər vermiş və bu torpağın hər qarışında şəhid qanı var. 30 ildən artıq Ermənistanın işğalçılığına, təcavüzkarlığına məruz qalmış Azərbaycan bu gün ZƏFƏR çalmış bir xalqdır və bu məğrurluq tariximizdə neçə-neçə igid oğullarımızı şəhidlik zirvəsinə yüksəldib. Bu, elə bir zirvədir ki, onun yüksəkliyində dayanmaq bir ömrün zirvəsi kimi qəbul olunur. Vətənimizi, torpaqlarımızı qoruyarkən şəhid olan igid oğullarımızdan biri də "Sən sağ olasan, Vətən!" - deyərək şəhidlik zirvəsinə yüksələn Cavid Dədəkişiyevdir. Qısa bir ömür yaşasa da, adını əbədiyyətə həkk etdi. Qisas almaq istəyi onu Vətənin şəhid oğluna çevirdi. Tərcümeyihalında yazılır ki, Cavid Gülbaba oğlu Dədəkişiyev 5 iyul 1988-ci ildə İmişli rayonunun Qaralar kəndində dünyaya gəlib. Ailənin birinci övladı olan Cavid Dədəkişiyevin özündən başqa iki qardaşı və bir bacısı var. 2006-cı ildə İmişli rayonunda Namiq Abışov adına tam orta məktəbi bitirən Cavid Dədəkişiyev elə həmin il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur. 2008-ci ildə motoatıcı ixtisası üzrə təhsilini davam etdirən Cavid Dədəkişiyev 2010-cu ilin 26 iyun tarixində leytenant rütbəsi almış, 2011-ci ildə Goranboy rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə vəzifəsinə başlamışdır. Sanki həyat onun ömür yolunda öz sözünü deyirdi. Hər atılan addımında vətəni qorumaq üçün öz təcrübə və ixtisasını artırırdı. Vətənin düşmən tapdağında olduğunu yaxşı bilirdi və bilirdi ki, bir gün erməniyə dərs verməyin zamanı çatacaq. 2016-cı il aprelin 1-dən 2-nə ötən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başladı. Tarixə Aprel döyüşləri olaraq yazılan hərbi əməliyyatlar zamanı Cavid Dədəkişiyev Tərtər rayonunun Talış kəndi istiqamətində döyüşlərdə igidliklə vuruşdu. Cavid Dədəkişiyev 2 aprel 2016-cı ildə Talış kəndi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid oldu. Aprel döyüşləri kimi tariximizə daxil olan bu döyüşlər bizi Zəfərə doğru apardı. Qan ilə torpaq suvaran oğullar öz davamçılarının olacağını və bir gün 30 illik həsrətə son qoyulacaq zamanın yaxında olacağını yaxşı bilirdilər.

Cavid Dədəkişiyev doğulduğu İmişli rayonunun Qaralar kəndində son mənzilə yola salındı. Dəfn mərasiminə minlərlə rayon sakini ilə yanaşı, şəhidin qulluq etdiyi hərbi hissənin əsgərləri və zabitləri də qatıldı. Cavid Dədəkişiyev ölümündən sonra göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edildi. Bəli, daha bir Azərbaycanın igid oğlu torpaqlarımızın azadlığı yolunda ən yüksək zirvəyə qovuşmuş oldu. Vətən, xalq, haqq və ədalət yolunda canından keçərək şəhid olan Cavid Dədəkişiyev odun-alovun içində yalnız torpağın müqəddəsliyini düşündü və ölümün gözlərinin içinə dik baxdı. Hər nəsil üçün nümunə olan bir məktəbin üzvünə çevrildi. Bu gün milli qürur yerimiz, milli iftixar yerimiz olan şəhidlərin uyuduqları məzarlar bizim üçün ən ucalıqda olan məzarlıqlardır. Onların hər biri vətən üçün doğulmuş və şəhid olmuş övladlarımızdırlar.Bir el, bir oba şəhid oğlunu - Cavid Dədəkişiyevi ehtiramla torpağa tapşırdı. Bu, əlbəttə ki, döyüş yolu ilə minlərlə Azərbaycan gəncinə örnək olan bir şəhidimizin əbədi dünyasına qovuşması idi. Şəhidlər ölmür. Onların ömrü bu torpaq var olduqca davam edir. Əbədi dünyanın ölməz oğullarını - bu gün fəxrlə yad etdiyimiz və daim qəlbimizdə yaşatdığımız şəhid övladları bu gün bizim işıqlı Azərbaycanda aparılan abadlıq-quruculuq işlərini ruhən duyur və qürurlanırlar. Görmək istədikləri Azərbaycan yeni bir dövrünü yaşayır.

Vətən belə övladları ilə fəxr duyur. Əzizlərinin onlar üçün axıtdıqları göz yaşları qürurla yoğrulmuş göz yaşlarıdır. Min əziyyətlərlə böyütdükləri övladlarını bu torpaq üçün bəsləmişdilər. Başını dik tut şəhid atası, şəhid anası. Gənc övladını torpağa tapşıran ana da sanki bu qisası ermənidən onun oğlu alacaqmış deyə təskinlik tapır. "Vətən sağ olsun". Bu ata, Ana böyüklüyüdür. Şəhidliyin ünvanı əbədiyyət olduğundan onlar daim yaşayır və tariximizin şərəfli səhifələrini yazanlardırlar.

***Zümrüd BAYRAMOVA***

ŞƏRH

# Ermənistan həm iqtisadi, həm də siyasi cəhətdən çökür

**Dünya iqtisadiyyatında müşahidə olunan tendensiyalar Ermənistan iqtisadiyyatına da öz ağır təsirlərini göstərməyə başlayıb. Belə ki, İrəvanda davam edən siyasi və iqtisadi böhranlar sanki bir-birini tamamlayır və ölkədəki xaotik vəziyyət çərçivədən çıxmağa başlayıb. Məsələn, Ermənistan üçün ən böyük problemlər Rusiyaya qarşı misli görünməmiş sanksiyalardır. Bu, Rusiya iqtisadiyyatında geriləmə və dinamikanın azalmasına gətirib çıxaracaq və nəticədə digər ölkələrin iqtisadi artımı ləngiyəcək.**

**Bir çox ekspertlər, Ermənistanın iqtisadi perspektivləri ilə bağlı kifayət qədər bədbin, hətta SOS siqnalları verməyə başlayıblar**

### İnflyasiya həddi 2022-ci ilin sonuna qədər daha 7% artacaq!

Artıq Ermənistanın mərkəzi bankı həyəcan təbili çalmağa başlayıb. Məsələ ondadır ki, beynəlxalq enerji və ərzaq məhsulları bazarlarında baş verən hazırkı proseslər erməni bazarı üçün inflyasiya gözləntilərini daha da artırmağa başladıb. Belə bir şəraitdə inflyasiya həddi 2022-ci ilin sonuna qədər daha 7% artacaq və bunu erməni iqtisadçıları da etiraf edirlər.

Daha bir fakt budur ki, iqtisadi fəaliyyət mühiti ilə biznesin inkişafı və azad rəqabətin təmin edilməsi əlverişli deyil.

### Hökumət sahibkarlara təzyiqlər göstərir

Artıq Nikol Paşinyan hakimiyyəti sahibkarlara istənilən vaxt təzyiq göstərməyə, onların hüquqlarını pozmağa imkan verən qanunvericilik sahəsi yaradıb. Artıq vəziyyət o qədər acınacaqlıdır ki, Ermənistan 2019-cu ilin böhrandan sonrakı səviyyəsinə belə çata bilməyib. Ona görə də təsadüfi deyil ki, bir çox ekspertlər, Ermənistanın iqtisadi perspektivləri ilə bağlı kifayət qədər bədbin, hətta SOS siqnalları verməyə başlayıblar.

***Rövşən RƏSULOV***





# "Böyük erməni xalqı" adına hörmətsizlik...

### Olan... oldu, keçdi...

...Yadınızda olar, o vaxt Aleksandr Lukaşenkonun onsuz da "Ermənistanın gedəcək yeri yoxdur" və əvvəl-axır onun Rusiya və Belarusun İttifaq Dövlətinə qoşulması barədə bəyanatı ermənilərə yaman yer eləmişdi.

Gərək ki, o da yadınızda olar, həmən vaxt erməni "ziyalıları" Lukaşenkonu "aşağılamaq" üçün elə bil bəhsə girmişdilər, Belə ki, ermənilərdən kimi onu "kartof yamasının diktatoru", kimi də "kolxoz sədri" kimi ayamalarla "boyamışdı".

Qeyd edim ki, Lukaşenkonun elə ermənilər barədə həmişə dediyi adi sözlərdən biri bu dəfə onlara necə yer eləmişdisə, hətta o vaxt Nikolun yaxın silahdaşlarından biri olan "Mülki müqavilə" partiyasının üzvü, deputat Ovik Ağazaryan Belarus prezidentinə "donuz tövləsini xatırladan" Minsk hava limanının qayğısına qalmağı tövsiyə etmişdi.

Əslində, mən burada Ovikin dediyi sözlərdəki mənaaltı fikri tuta bilmişdim. Belə ki, mənə görə, o bununla Belarus rəhbərinə ermənilərin "İttifaq Dövlətinə qoşulmaq" üçün gələcəyi vaxta qədər Minsk hava limanını qaydaya salmağı məsləhət görürdü.

Amma deyim ki, yenə həmən ərəfədə Lukaşenkoya ən sərrast, lokonok daha nə bilim... nə cavabı baş nazir Nikol Paşinyan vermişdi. Təbii ki, bu boyda ölkənin baş naziridir axı, belə də olmalıdır.



**Bu gün Belarus KTMT, Gömrük İttifaqı və Aİİ kimi təşkilatlarda bizimlə bir yerdə olsa da, amma həmişə biz ermənilərə "xəyanət" edib**

Deməli o, ölkə parlamentində hökumət saatı zamanı "mənim avtomatla küçələrdə gəzdiyimi heç görmüsünüzmü?"-deyə öz erməni deputatlarına ritorik bir sual ünvanlamışdı.

Qeyd edək ki, bu, 2020-ci ilin avqustunda yerli müxalifətin o vaxtkı mübahisəli prezident seçkilərindən sonra Minskdə baş verən hadisələrə işarə idi. Yadınızda olar, Lukaşenko həmən ərəfədə əlinə avtomat alıb "zirehli paltarda" Minskdə "gəzirdi".

Amma, yenə də mən Nikolun bununla bağlı xatırlamasını onun ən böyük tapıntılarından biri kimi qəbul edirəm. Özünüz düşünün, belə bir məqamı yada salıb dilə gətirmək, kimin ağlına gələrdi?

### Nə isə, yuxarıda da dediyimiz kimi, olan... oldu, keçdi...

Amma, sən demə, ermənilər üçün hələ keçməyibmiş. Deməli, ötən gün Ermənilərin baş naziri Nikol Paşinyan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya ölkəsinin Müstəqillik Günü münasibətilə təbrik məktubu göndərib. Nikol öz məktubunda "erməni mədəniyyətinin nümunəsi" olaraq "hörmətli Aleksandr Qriqoryeviç" müraciəti ilə də başlayıb və daha sonra "Ermənistanla Belarusun qarşılıqlı faydalı tərəfdaşlığının genişləndirilməsi və dərinləşdirilməsindən"... dəm vurub.

Amma bu, təbii ki, ermənilərə xoş gəlməyib. Belə ki, onlar deyir ki, Hikol gərək həmişə Azərbaycana sədaqət nümayiş etdirən Belarus prezidentinə belə müraciət etməyəydi. Çünki, Lukaşenko həmişə Azərbaycanı silahla təmin edib, onun siyasətini dəstəkləyib...bizə isə...

Bu gün Belarus KTMT, Gömrük İttifaqı və Aİİ kimi təşkilatlarda bizimlə bir yerdə olsa da, amma həmişə biz ermənilərə "xəyanət" edib. Niyə uzağa gedək? Elə 44 günlük müharibə zamanı onlar bizə heç bir yardım-filan göstərmədilər.

... Ermənilərə görə, bu gün Belarusun Ermənistandan fərqli olaraq nə müstəqilliyi var, nə də ki, suverenliyi. Bundan əlavə, bu gün Nikolun "böyük nəvazişlə" hörmətli adlandırdığı Lukaşenkonun Putinin yanında heç Ramzan Kadırov qədər də hörməti yoxdur.

Məhz buna görə də, Nikolun belə bir hörmətsizə "hörmətli" kimi müraciət etməsi əslində "böyük erməni xalqı" adına hörmətsizlikdir.

P.S. Bu arada Ermənistan Baş naziri Nikol Paşinyanın Belarus Prezidenti Aleksandr Lukaşenko ilə bağlı elə ermənilərə xas olan ikiüzlü davranışı gündəmə gəlib. Belə ki, "Aykakan Jamanak" nəşrinin redaktoru olduğu 2010-cu ildə Lukaşenkonun yenidən prezident seçilməsi ilə bağlı Nikolun məqaləsi sosial şəbəkələrdə paylaşılıb. Qeyd edək ki, ötən gün Lukaşenkonu "təmtəraqlı sözlərlə" təbrik edən Paşinyan, 2010-cu ildə onu "minlərlə insanın ölümünə" bais biri kimi təqdim edib.

***Ağasəf Babayev***

# Rusiya prezidentinin xüsusi nümayəndəsi: "Heydər Əliyev məni şoka saldı"

Mixail Şvıdkoy: "O zaman Heydər Əliyev həqiqətən də ölkəni xilas etdi və bu, çox mühüm tarixi addım idi"



Bakı ilə İrəvan arasında münasibətlərin ardıcıl normallaşmasına yönəlmiş Ermənistan və Azərbaycan ictimaiyyəti nümayəndələrinin 2-ci görüşü bu ilin yayında baş tuta bilər. Rusiya tərəfi Bakı və İrəvandakı həmkarları ilə bu mövzunu müzakirə edir. Bu barədə Moskva-Bakı portalına müsahibəsində Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy məlumat verib. Bir neçə gün əvvəl o, Bakıda olub, burada Azərbaycan və Rusiya xalqlarının Dostluq Klubu çərçivəsində həmvətənləri, gənclər, mədəni-maarif təşkilatlarının nümayəndələri ilə görüşüb. Mixail Efimoviç rus və azərbaycanlı gənclər arasında əməkdaşlığın yeni istiqamətləri barədə də danışıb, Sovet Azərbaycanını xatırlayıb və müasir Azərbaycanda hər bir rusiyalı turistin ziyarət etməli olduğu bir neçə yerin adını çəkib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Mixail Efimoviç, Azərbaycan gəncləri ilə görüşünüzü qısaca yekunlaşdırsanız, bu gün onları ən çox hansı mövzular narahat edir?***

- Rossotrudniçestvo rəhbərliyinə minnətdaram, səmimi qəbula görə Mədəniyyət və Elm Mərkəzinə minnətdaram. Biz birlikdə Böyük Vətən Müharibəsinin 1-ci gününə həsr olunmuş "Xatirə şamı" adlı anım aksiyası keçirdik. Bu mərasim çərçivəsində bir sıra azərbaycanlı gənclər təşkilatları, həmvətənlərimiz və Azərbaycan mədəniyyətinin nümayəndələri ilə görüşümüz oldu.

Əlaqələrin olmaması bu gün Mədəniyyət Nazirliyi və gənclər təşkilatlarının gündəminə gətirilməsi vacib olan mövzulardan biridir. Bu, ilk növbədə, mədəniyyət xadimləri ilə gənclər arasında peşəkar əlaqələrin fəallaşmasıdır. Açığı, bu gün onlar həm azərbaycanlı, həm də rus gəncləri üçün kifayət deyil.

Aydındır ki, bir-birinə sevgi və dostluq sözləri deməyə, ümumi, emosional sevincli tədbirlər keçirməyə həmişə ehtiyac var. Amma mənə elə gəlir ki, peşəkar münasibətlər həmişə daha effektiv və uzunmüddətli olur. Yəni, məsələn, ixtisaslaşmış ali məktəblərin tələbələrinin Azərbaycan və Rusiyadakı həmkarları ilə peşəkar əlaqələri. Mənə elə gəlir ki, bu gün ciddi problemlərdən biri gənclər arasında peşəkarlar arasında daha geniş əlaqələrin qurulmasıdır.

O ki qaldı mədəniyyət xadimlərinə, hesab edirəm ki, bu halda belə bir ifadə doğrudur: "xalqlar zirvələrlə ünsiyyət qurur". Bununla belə, milli mədəniyyətlərin ən yaxşı nailiyyətlərinin həm Rusiyada, həm də Azərbaycanda təqdim olunması zəruridir. Bu çox vacibdir. Deyə bilmərəm ki, Azərbaycanda rus mədəniyyətinin, Rusiyada isə Azərbaycan mədəniyyətinin olmaması bir boşluqdur. Amma mən istərdim ki, bunlar yüksək sənət təqdim edə bilən ən aparıcı, ən mühüm mədəniyyət müəssisələrinin mübadiləsi olsun. Söhbət "Bolşoy Teatr"dan, Moskva İncəsənət Teatrından, ən yaxşı filarmoniya orkestrlərindən gedir, əgər Rusiyadan danışırıqsa. Bu kifayət deyil.

Onu da deyim ki, biz məsələn, gənclərin internetdə necə ünsiyyət qurduğunu tam dərk etmirik. Və hesab edirəm ki, məhz orada azərbaycanlılarla ruslar arasında ünsiyyət daha aktivdir. Buna da diqqət yetirməyə dəyər. Mənə elə gəlir ki, biz iki ölkənin ən məşhur bloqçularının görüşünü keçirə bilərdik. İstənilən halda burada pandemiya zamanı dayandırılmış fəaliyyət üçün kifayət qədər geniş sahə var. İndi bu istiqamət yeni təkan tələb edir.

***- Bu yaxınlarda İrəvana da səfər etdiniz. Orada Ermənistan və Azərbaycan ictimaiyyəti nümayəndələrinin 2-ci görüşünün keçirilməsi imkanını müzakirə etmisinizmi?***

- Ötən ilin dekabrında Rusiya tərəfinin vasitəçiliyi ilə Moskvada Azərbaycan və Ermənistan ziyalılarının görüşü keçirildi. Və demək istəyirəm ki, həm Azərbaycan, həm də Ermənistan rəhbərliyi bu təcrübəyə müsbət yanaşır. Aydındır ki, hər dəfə bu görüşlər asan olmasa da, bütövlükdə bəzi müsbət impulslarla nəticələnir ki, bu təmaslar tez-tez olarsa, onları artırmaq olar. İndi biz həm Bakıda, həm də İrəvandakı həmkarlarımızla belə yeni görüşün mümkünlüyünü müzakirə edirik. İstərdim ki, payızdan əvvəl baş versin.

Bilirəm ki, bu gün rusiyalı politoloqların iştirakı ilə iki ölkənin politoloqlarının növbəti görüşü müzakirə olunur. Mənə elə gəlir ki, bütün bunlar lazımdır. Mən ondan çıxış edirəm ki, ölkələrin vətəndaşlarına sülh yolu ilə nizamlanmanın və dinc həyatın region üçün nə üçün lazım olduğunu izah etmək həmişə çox vacibdir. Aydındır ki, çoxlu ağrı nöqtələri yığılıb, bu, əlbəttə ki, heç bir yerə getməyəcək. Ancaq bu gün yalnız keçmişin yaralarını düşünmək deyil, gələcək haqqında düşünmək vacibdir.

***- 1970, 1980, 1990-cı illərdəki Bakını xatırlayırsınız, müasir Azərbaycanı yaxşı tanıyırsınız. Turizm komponentindən danışsaq, Azərbaycan rus turistlərini necə təəccübləndirə bilər? Hansı əraziləri ziyarət etməyi tövsiyə edərdiniz?***



- Baxmayaraq ki, mən Azərbaycanı yaxşı tanıyıram, təbii ki, hər dəfə özüm üçün yeni məkanlar kəşf edirəm. Rus turistlər bu gün iki mühüm bölgəni tanıyırlar. Bu, Bakının daxil olduğu, dənizdə istirahət imkanları olan Abşeron vadisidir. Bu, şübhəsiz ki, Rusiyadan gələn turistlər üçün cəlbedici bir fürsətdir. İkinci yerdə isə son bir neçə ildə böyük beynəlxalq nüfuza malik kurorta çevrilmiş Qəbələdir. Çünki bura xizək kurortu və müxtəlif tibbi proqramlar məkanıdır. Bu gözəl SPA və həyat verən havadır. Amma bu yaxınlarda, mənim nöqteyi-nəzərimə görə, keyfiyyətcə yeni həyat əldə edən Şamaxıda ilk dəfə idim. Əminəm ki, Azərbaycanın bu gözəl bölgəsinin təklif etdiyi ekoturizm rusiyalı turistlər üçün xoş olacaq. Çünki bu, ecazkar təbiəti yaşamaq fürsətidir. Bir azərbaycanlı dostun dediyi kimi: "Şamaxıda əsas havadır!". Ancaq bu, təkcə hava deyil. Bu, tamamilə heyrətamiz nəticələr verən heyrətamiz yeni şərabçılıqdır. Mən bu şərabın dadına baxmışam və bu, təcrübəli qurmanların öyrəşdiyi ən yaxşı şərablarla bərabərdir. Həmçinin Şamaxıda canlı varlıq hissinə toxunmaq imkanı verən heyrətamiz şeylər var. Və təbii ki, bunlar dağlarda gözəl səyahət marşrutlarıdır. Bundan əlavə, Şamaxı Azərbaycanın qədim paytaxtıdır və özünəməxsus tarixi görməli yerləri var. Bütün bunlar birlikdə heyrətamiz bir hiss yaradır.

Rusiyalı turist üçün Şamaxının yaxınlığında yerləşən İvanovka kəndini ziyarət etmək maraqlı olardı. Bu, tamamilə fərqli qastronomik və ekoloji dünyadır. Bütün bunlar birlikdə heyrətamiz yerdir və bir neçə gün qalmağa dəyər.

Həmçinin, Aleksandr Dümanın səyahətlərində təsvir etdiyi Şəki rusiyalı turistlərin marağına səbəb olacaq. Hələ Sovet vaxtı Şəkidə olmuşam. Amma indi, mənə deyildiyi kimi, bu, Azərbaycanın tamamilə dəyişmiş bölgəsidir. Azərbaycanda səyahət edərkən kəşf edə biləcəyimiz çoxlu yerlər var. Və bu kəşflər müxtəlif təəssüratlar verə bilər. Mənim üçün yaxşı yolların olması turistlərin rahatlığında həlledici rol oynayır. Azərbaycanda son 5-7 ildə yollar dəyişib. Azərbaycanın yaxşı yollarında çox rahat maşın sürmək olur. Bu isə turizm sənayesinin inkişafı üçün çox mühüm təminatdır.

***- Sovet dövründə Azərbaycanı gəzərkən yaddaqalan maraqlı əhvalatlarınız, görüşləriniz olubmu?***

- Azərbaycana səfərlərim zamanı tale məni çox böyük insanların yanına gətirib. Və təbii ki, mənim ən güclü təəssüratlarımdan biri də Heydər Əliyevlə görüşlə bağlıdır. 90-cı illərin ikinci yarısında Bakıya gəldim. Şəhər hələ də tamamilə fərqli idi, o qədər də yenidən qurulmamışdı, lakin rahat və tamamilə mehriban idi. Təyyarədən teatra gəldim, orada rus və azərbaycanca tamaşa var idi. Heydər Əliyev tamaşada iştirak edirdi. Tamaşadan sonra o, səhnə arxasına gələrək ifaçılarla bir saata yaxın söhbət etdi. Məndə inanılmaz təəssürat yaratdı. Birincisi, bu, səhnədə gördüklərimizin parlaq teatral təhlili idi. İkincisi, bu, həm də Azərbaycan həyatının dərin biliklərinin fantastik nümayişi idi. Heydər Əliyev hər bir sənətkarı ad və ata adı ilə tanıyırdı, onların valideynlərini tanıyırdı. O, Azərbaycan teatrının həyatından 30 il əvvəlki epizodları xatırladıb. Onun Azərbaycan həyatına bu dərəcədə dərindən qərq olması məni şoka saldı. Dövlət başçısının öz vətəndaşlarının həyat təfərrüatlarını incəliklərinə qədər bilməsi bu heyrətamiz hadisədir. Bunu ömrümün sonuna qədər xatırlayıram.

Onu da demək istəyirəm ki, Heydər Əliyev olmasaydı, bilmirəm, müasir Azərbaycan indiki formada mövcud olardımı? O zaman Heydər Əliyev həqiqətən də ölkəni xilas etdi və bu, çox mühüm tarixi addım idi.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili-Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS
5 iyul
2022-ci il

# "Barselona" bu futbolçuya 500 milyon qiymət qoydu!

**İspaniyanın "Barselona" futbol klubu heyətini yeni futbolçu ilə gücləndirib. Katalon klubunun rəsmi saytında yer alan məlumatda deyilir ki, Kataloniya təmsilçisi "Milan"dan Frank Kessyeni transfer edib.**

Fil Dişi Sahili millisinin üzvü ilə 4 illik müqavilə imzalanıb. 26 yaşlı yarımmüdafiəçiyə 500 milyon avro təzminat qiyməti qoyulub. Qeyd edək ki, 2017-ci ildən "Milan"da çıxış edən Frank Kessye komandada 223 oyuna 37 qol vurub, 16 məhsuldar ötürmə edib.




# Qurban əti necə paylanılmalıdır?

**Din xadimi açıqladı**

**"Qurban Uca Allaha yaxınlaşmaq mənasını bildirir. Çünki insan qurban kəsməklə öz Rəbbinin əmrini icra etmiş olur". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan İlahiyyat İnstitutunun müəllimi, din xadimi Hacı İbrahim Quliyev deyib.**

Onun sözlərinə görə, Uca Allahın əmrlərinə boyun əymək, onları düzgün yerinə yetirmək təqva və imanın əlamətlərindəndir: "Müsəlmanlar Qurban bayramında öz məvaciblərinə uyğun qurbanlıq alıb kəsməklə həm Allahın əmrini yerinə yetirmiş, həm də sosial bərabərliyi qorumuş sayılırlar. Çünki Qurban bayramı günlərində kəsilmiş heyvan yaxın qohumlar, qonşular və yoxsullar arasında paylanılır. Qurban bayramında insanların bir-birlərini ziyarət etmələri, bayramlaşmaları çox böyük savabdır".

İbrahim Quliyev sözlərinə belə davam edib: "Müsəlmanların Qurban bayramı günlərində əldə etdikləri ən böyük savabalardan da biri kəsdikləri qurbanın ətinini yoxsullar arasında bölüşdürmələridir. Məlumdur ki, Uca Allah Qurani-Kərimin müxtəlif ayələrində yoxsullara əl tutmağı, onların dərdlərinə şərik olmağı dəfələrlə tövsiyə etmiş və bu əməli imanın əsas nişanələrindən biri kimi qələmə vermişdir.

Bütün bu dediklərimizin fonunda belə bir nəticəyə gəlirik ki, Qurban bayramında müsəlmanlar aşağıdakı əməllərə ciddi diqqət göstərsələr daha çox savab əldə etmiş olarlar:

Birincisi, İmkanı miqdarında, hətta borc almaqla olsa belə, qurban kəsmək.

İkincisi, kəsdiyi qurbanın ətini yaxın qohum-qonşular və yoxsullar arasında bölüşdürmək.

Üçüncüsü, qohum-əqrəbanı ziyarət etmək, onlarla bayramlaşmaq.

Dördüncüsü, Ev-eşiyi təmizləmək, bayram üçün bəzəmək.

Beşincisi, təmiz və şəninə uyğun əlvan paltarlar geyinmək, bayram abu-havasında olmaq.

Altıncısı, bayram namazına getmək, nəzərdə tutulmuş bəzi duaları oxumaq və s.".



*Ayşən Vəli*

# Yol qəzalarında 2 gündə 7 nəfər ölüb...

**Həftəsonu, iyulun 2-də və 3-də yol qəzalarında 7 nəfər ölüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib.**

Qeyd olunub ki, respublikanın avtomobil yollarında ölümlə nəticələnən 7 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 7 nəfər ölüb, 2 nəfər isə xəsarət alıb.



# ŞOK:

## İyulda Azərbaycanda qar yağdı!



**Hazırda paytaxtda havanın orta temperaturu iqlim normasından aşağıdır. Şahdağda isə havanın temperaturu 0 dərəcə qeydə alınıb, nəticədə yağıntı qara keçib, hətta 1 sm-lik qar örtüyü əmələ gəlib. SİA xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva bildirib. O qeyd edib ki, bu nadir hadisə olsa da, lakin 2019-cu ildə iyulun 1-də də Şahdağda analoji proses baş vermişdi.**

"Həm iyun ayında baş verən rekord sel-daşqın hadisələri, həm iyulun əvvəlində qeydə alınan proseslər iqlim dəyişmələrinin təzadlarının kəskinləşməsini, anomal atmosfer hadisələrinin artmasını növbəti dəfə göstərir".

Xidmət rəisi qeyd edib ki, əvvəlcədən xəbər verildiyi kimi, soyuq atmosfer cəbhəsi əsasən şimal və qərb rayonlarında intensiv və güclü yağıntılara səbəb olub. "Belə ki, Böyük Qafqazın bəzi yerlərində güclü leysan olub, cəmi 12 saat ərzində düşən yağıntının miqdarı Balakəndə 83 mm (aylıq normanın 108 faizi), Zaqatalada 80 mm (aylıq normanın 104 faizi) təşkil edib. Nəticədə səhər saatlarında Zaqatala rayonunun Talaçay, Qımır, Qımırbazar kəndlərindən sel keçib".

U.Tağıyeva onu da bildirib ki, yaxın günlər ərzində əksər rayonlarda havanın yağmursuz olacağı gözlənilsə də, lakin ayın 9-dək şimal və qərb rayonlarında hava şəraitinin qeyri-sabit keçəcəyi, fasilələrlə qısamüddətli leysan xarakterli yağış yağacağı ehtimalı var.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3220**